# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 32 (3545) Cümə axşamı / 5-11 sentyabr 2024-cü il Qiymәti 40 qәpik


MÜSAHİB

## Qərbi Azərbaycan Mühacirət Hökuməti yaradıla bilər



**Hikmət Babaoğlu,**
Qərbi Azərbaycan İcmasının sədr müavini

***2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun əks-hücumu nəticəsində başından dəmir yumruq zərbəsi alan separatçı Ermənistan hələ də sərsəmləyir, cəfəng iddialarla ortalığı qarışdırmağa cəhdlər edir. Ermənistan rəhbərliyinin sülh müqaviləsini imzalamaması və ərazi iddiaları ilə bağlı konkret mövqe nümayiş etdirməyib vaxtı uzatması bölgədə sülhə təhlükə olaraq qalır. Erməni separatçıları köhnə ab-havalarında iddialarından əl çəkmir, məğlub dövlət ordusunu gücləndirir, sülh gündəliyi ilə bağlı konkret addımlar atmır, Azərbaycana qarşı revanşist iddialar davam etdirirlər.***

*Ermənilərin Qarabağa qayıtması məsələsini ermənilərin özləri də real hesab etmirlər*

Səh. 5

# Tehran Moskvaya qarşı

***Son günlərdə Moskvadan Zəngəzur dəhlizinin açılmasının vacibliyi ilə bağlı ard-arda bəyanatlar verilir. Bu məsələ Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərindən sonra daha da aktuallaşıb. Kremlin mövqeyində üçtərəfli bəyanata istinad edilməsi, kommunikasiya əlaqələrinin açılması ilə bağlı prosesin dalana dirənməsində əsas günahkarın Ermənistan siyasi rəhbərliyi olması ilə bağlı bəyanatları İrəvanda və Tehranda ciddi narahatlıq yaradıb. İş o yerə çatıb ki, Tehran əvvəl bağlı qapılar arxasında Moskvaya hansısa məsələdə iradlarını və ya narahatlığını çatdırsa da, bu dəfə etiraz nümayişkarənə şəkildə ortaya qoyulub.*** **İran Ermənistandan keçərək Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək marşruta qarşı çıxıb.**



Bununla bağlı Rusiyanın Tehrandakı səfiri ilə İran Xarici İşlər Nazirliyinin Avrasiya Baş İdarəsinin rəisi və nazir köməkçisi Müctəba Dəmirçilu arasında görüş keçirilib. Bu barədə İran XİN məlumat yayıb.

Qeyd edilib ki, Dəmirçilu Rusiyanın Tehrandakı səfiri ilə görüşündə davamlı sülhün təminatçısı və regional sülhün əsası olan ölkələrin milli suverenliyinə, ərazi bütövlüyünə və qarşılıqlı maraqlarına hörmətdən danışıb. O, İranın regionda sülh və sabitliyin bərqərar olmasını, region ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsini dəstəklədiyini və regionun geosiyasi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsinə qarşı olduğunu vurğulayıb. Görüşdə Qafqazda cari proseslər ətrafında fikir mübadiləsi aparılıb, ölkələrin regionda sülh və stabil olmasına dəstək, region ölkələri arasında əməkdaşlığın inkişafına köməklik göstərilməsi, beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsi ilə mübarizə aparılması vurğulanıb.

Tərəflər, həmçinin qarşıdan gələn görüşlə bağlı bütün tərəflərin maraqlarını nəzərə alaraq, məsələlərin həlli və regionda sülhün və sabitliyin möhkəmləndirilməsinə və iqtisadi planların həyata keçirilməsinə kömək etmək üçün region ölkələrinin imkanlarından istifadə edilməsinin vacibliyini vurğulayıblar.

Həmçinin "3+3" formatı çərçivəsində qarşıdan gələn iclası və İran, Rusiya və Azərbaycan xarici işlər nazirlərinin görüşü müzakirə olunub. Qeyd edək ki, bir müddət əvvəl Bakıda səfər olan Rusiya xarici işlər naziri Sergey Lavrov Rusiyanın "Birinci Kanalı"na açıqlamasında deyib ki, Paşinyan Qarabağ üzrə üçtərəfli razılaşmaları sabotaj edir.

"Təəssüf ki, Ermənistanın Sünik bölgəsindən (Zəngəzur) keçən kommunikasiyalara gəlincə, altında baş nazir Paşinyanın imzası duran sazişi sabotaj edən məhz Ermənistan rəhbərliyidir. Belə bir mövqenin məntiqinin nə olduğunu anlamaq çox çətindir. Amma mən əminəm ki, üçtərəfli görüşlər çərçivəsində, üçtərəfli sənədlərdə qoyulan təməl tam şəkildə aktual olaraq qalır", - Lavrov deyib.

■ **Politoloq Elxal Şahinoğlu da o fikirdədir ki, Tehran Moskvanın Zəngəzur dəhlizini dəstəkləməsindən narahatdır. Rusiyanın Tehrandakı səfiri Aleksey Dedovun İran Xarici İşlər Nazirliyinə çağırılması bununla bağlıdır.**

Səfirlə görüşdə müxtəlif mövzular müzakirə olunsa da, hiss olunur ki, Tehran Moskvanın Zəngəzur dəhlizinə verdiyi dəstəkdən narahatdır: "Tehranın Kremlin də Zəngəzur dəhlizi əleyhinə siyasət yürüdəcəyi hesabı yanlış çıxıb. İrandakı dairələr əvvəlkitək hesab edirlər ki, Zəngəzur dəhlizi İran-Ermənistan sərhəddini bağlayacaq. Halbuki, söhbət sərhədin qapanmasından deyil, dəhlizin açılmasından gedir ki, bundan müxtəlif ölkələr, o cümlədən İran da istifadə edə bilər.

Tehran Azərbaycanla Ermənistanın daxili işlərinə qarışa bilməz. Zəngəzur dəhlizinin açılmasına iki dövlət qərar verəcək - Azərbaycan və Ermənistan. Tehran dəhliz mövzusunda Bakıya təzyiq edə bilmədiyinə görə, İrəvana təzyiq etməyə çalışır. Ancaq Ermənistan hakimiyyəti də ortaq layihələrdə iştiraka maraq göstərir. Tehranın istəyindən asılı olmayaraq Zəngəzur dəhlizi işə düşəcək.

*Bir çoxlarının yuxusunu qaçıran Zəngəzur dəhlizi iki müttəfiqi üz-üzə qoydu*

Azərbaycanın İranla da dəhlizlə bağlı razılaşması var. İran ərazisindən - Araz çayının sahili ilə Naxçıvana dəmiryolu çəkiləcək. Belə çıxır ki, Tehran İran ərazisindən Naxçıvana dəhlizin çəkilməsini dəstəkləyərkən, Ermənistandan Naxçıvana dəhlizin çəkilməsinin əleyhinədir. Bu ikili standartlardır. Bütün hallarda Tehran Zəngəzur dəhlizinin reallaşmasına mane ola bilməyəcək". Bu arada İranın hakimiyyətə yaxın media orqanların da Moskvanın Zəngəzur dəhlizi ilə bağlı ortaya qoyduğu mövqe hədəf alınıb.

Tasnim agentliyi bu məsələyə dair böyük bir təhlil dərc edib. "Bu xəyali dəhliz yaradılmayacaq" adlı məqalədə iddia olunur ki, Vladimir Putinin Bakıya son səfərindən sonra Rusiyanın yüksək rütbəli məmurlarının Cənubi Qafqaz regionunda kommunikasiya marşrutu ilə bağlı son mövqeyinin açıqlanması və bunun son günlərdə təkrarlanması İranın bu məsələ ilə bağlı elan etdiyi bəzi prinsip və əsasların rus məmurlarına açıq şəkildə vurğulanmasını tələb edir. Qeyd olunur ki, İranın yüksəkrütbəli rəsmiləri Rusiya, Azərbaycan Respublikası, Ermənistan və Türkiyə rəsmiləri ilə müxtəlif görüşlərdə Tehranın sərhədlərdə və regionda geosiyasi dəyişikliklər gətirəcək bu dəhlizə açıq şəkildə qarşı olduğunu dəfələrlə bəyan ediblər:

"Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın son açıqlamalarından sonra Rusiyanın bu mövqeyinə həssaslıq artıb. O, açıqlamasında bildirib ki, Zəngəzur dəhlizi Ermənistanın Sünik vasitəsilə Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirə biləcək marşrutdur. Zəngəzur dəhlizinin açılması Ermənistanla üçtərəfli sülh danışıqları çərçivəsində mütləq müzakirə olunacaq və Moskvanın İrəvanla Bakı arasındakı əlaqələrin açılması ilə bağlı mövqeyi məlumdur".

İranın mövqeyi ilə bağlı sualı cavablandıran Zaxarova jurnalistlərə deyib:

Səh. 5

MÜSAHİB



**Qabil Hüseynli,**
politoloq, professor

■ Kommunikasiya xətlərinin sülh mətnindən çıxarılmasına gəlincə, bu, heç bir tərəf üçün yaxşı hal deyil

■ Rusiya Ermənistanı Zəngəzur dəhlizinin açılmasına maneə yaratmamağa razı sala bilər

■ ABŞ kimi üçüncü tərəflər prosesə qoşulanda məsələyə bitərəfli yanaşır, problemi Ermənistanın xeyrinə həll etməyə çalışırlar

Səh. 3

GÜNÜN FOTOSU...



**Parisdə keçirilən Yay Paralimpiya Oyunlarında paraatletimiz Lamiyə Vəliyeva qızıl medal qazandı**

GÜNÜN SİTATI

*"Zatulin dəfələrlə Azərbaycanın dövlətçiliyinin və xalqının əleyhinə bəyanatlar verib"*



**Polad Bülbüloğlu,**
Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri

KARİKATURA



**DİN xəbərdarlıq etdi - inanmayın**

## Mişar daşını bahalaşdıran səbəblər

**Xalid Kərimli,**
iqtisadçı-ekspert

Daş karxanalarını əvvəlki kimi istismar edə bilmirlər, buna ciddi nəzarət var.

Səh. 7

STATİSTİKA



■ **2024-cü ilin yanvar-avqust ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda proqnoza nisbətdə 102,6 mln. manat və ya 2,8% artım qeydə alınıb.**

Büdcə təşkilatları üzrə daxilolma ötən ilin müvafiq dövrü ilə müqayisədə 94,2 mln. manat və ya 8,1%, qeyri-büdcə təşkilatları üzrə isə 249,7 mln. manat və ya 11,3 % artımla olub.



Səh. 9

## Manat ucuzlaşmayacaq

XƏBƏR LENTİ

## Kəmaləddin Heydərov Qaşim Maqomedovla görüşüb



**Azərbaycan Taekvondo Federasiyasının (ATF) prezidenti Kəmaləddin Heydərov Paris-2024 Yay Olimpiya Oyunlarında uğurlu çıxışı ilə yadda qalan Qaşim Maqomedovu (58 kq) qəbul edib.**

Taekvondo Federasiyasından verilən məlumata görə, ATF rəhbəri ölkəmizi Fransa paytaxtında uğurla təmsil etdiyi üçün taekvondoçunu təbrik edib və yeni uğurlar arzulayıb.

O, Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə idmanın digər sahələrində olduğu kimi taekvondonun da geniş populyarlıq qazandığını vurğulayıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uğur qazanan idmançılarımızı xüsusi təbrik etməsi onları yüksək nəticələr göstərmələri üçün daha da həvəsləndirir. K.Heydərov Qaşim Maqomedovun Olimpiadadakı çıxışını yüksək qiymətləndirərək, finaladək inamla irəlilədiyini, həlledici görüşdə zədəli halda belə dayanqdan çəkilmədiyini, əzmkarlıq nümayiş etdirdiyini deyib. Kəmaləddin Heydərov finalda zədə problemi yaşanmayacağı halda taekvondoçunun Olimpiya çempionu olacağına da inam ifadə edib.

Qaşim Maqomedovdan növbəti yarışlarda, xüsusilə 2028-ci ildə keçiriləcək Los-Anceles Yay Olimpiya Oyunlarında uğur gözlədiyini bildirib. Qaşim Maqomedov və məşqçilər korpusu göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib, növbəti yarışlarda da Azərbaycan bayrağını daim ucalarda dalğalandırmaq üçün bütün gücləri ilə çalışacaqlarını diqqətə çatdırıblar. Qeyd edək ki, Q.Maqomedov Paris-2024-də gümüş medal qazanıb.

## Zatulinə görə Rusiya Dumasına etiraz edildi



***Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Rusiya Federasiyası Dövlət Dumasının MDB komitəsi sədrinin birinci müavini Konstantin Zatulinin təxribatçı videomüraciəti ilə əlaqədar Rusiya Federasiyası Dövlət Dumasının sədri Vyaçeslav Volodinə məktub göndərib.***

Səfir Duma sədrinə müraciətində Zatulinin hərəkətinin ilk belə hal olmamasını və bunun narahatlıq doğurduğunu bildirib. Qeyd edib ki, Zatulin dəfələrlə Azərbaycanın dövlətçiliyinin və xalqının əleyhinə bəyanatlar verib. "Təəssüf hissi ilə qeyd edirəm ki, Azərbaycan tərəfinin bu cür nalayiq halların qarşısını almaq üçün Rusiya Federasiyasının rəsmi orqanlarına dəfələrlə müraciət etməsinə baxmayaraq, K.Zatulinin ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə xələl gətirən təxribat fəaliyyətinə qarşı hələ də təsirli tədbirlər görülməyib. Bütün bunlar Milli Məclisin deputatları arasında və ölkəmizin ictimai mühitində ciddi narahatlıq yaratmaqda davam edir, Rusiyadakı Azərbaycan diaspor təşkilatlarını təşvişə salır və iki ölkənin parlamentlərarası əməkdaşlığına mənfi təsir göstərir. Bununla əlaqədar, sizdən, hörmətli Vyaçeslav Viktoroviç, Rusiya Federasiyasının rəsmi mövqeyinə və Dövlət Dumasının reqlamentinə uyğun olaraq, bu məsələyə prinsipial yanaşmanızı və Zatulin tərəfindən gələcəkdə bu cür təxribatçı hərəkətlərinin qarşısını almaq üçün mümkün olan hər şeyi etməyinizi təkidlə xahiş edirəm", - deyə diplomat vurğulayıb.

Qeyd edək ki, Dumanın MDB, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Münasibətlərlə iş üzrə komitəsinin sədr müavini, qatı ermənipərəst deputat Konstantin Zatulin sentyabrın 2-də ötən ilin sentyabrında keçirilən antiterror tədbirləri ilə darmadağın edilən qondarma ""DQR"-in "Müstəqillik Günü" münasibəti ilə erməni xalqını "təbrik" edən videomüraciət yayıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Kəlbəcər yenidən qurulur





***Azərbaycanın dünyada turizm məkanı kimi tanıdılması prioritet məsələlərdəndir. Əsas hədəflərdən biri 2026-cı ildə ölkəmizə səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. Hesablamalara görə, 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək.***

## Gündəm

Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır. Artıq işğaldan azad olunmuş ərazilərimiz də turizm sektoruna öz töhvəsini verməkdədir. Son illər bu ərazilərə turist axını onu deməyə əsas verir ki, yaxın gələcəkdə Qarabağ Azərbaycanın əsas turizm zonasına çevriləcək. Dövlət başçısının işğaldan azad olunan ərazilərə səfərləri isə bu ərazilərin tezliklə abadlaşdırılmasından, canlanmasından xəbər verir.

**Yeri gəlmişkən, ölkə turizminin inkişafına töhfə verəcək əsas bölgələrdən biri Kəlbəcər rayonudur. Kəlbəcərin turizm sahəsinin inkişafi üçün gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral sulari dövlət iqtisadiyyatı üçün böyük əhəmiyyət daşıyır.** Bu rayonda Yuxarı İstisu, Aşağı İstisu kimi böyük müalicəvi təsirə malik mineral su yataqları da var. Alagöllər, Qaragöl, Zalxa gölü və s. gölləri var. Zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir.

Onun suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilib. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi. Rayonun İstisu qəsəbəsində İstisu sanatoriyaları fəaliyyət göstərirdi. Orada hər il 50 mindən artıq insan müalicə olunur, eyni zamanda istirahət edirdi. Bu sanatoriyaların yenidən bərpası və fəaliyyət göstərməsi bura olan turist marağının sayını artıracaq.

Kəlbəcər rayonu bir çox turistlərdə də maraq yaradacaq tarixi abidələrlə zəngindir. Burada Alban dövrünə aid xeyli tarixi abidələr var. Kəlbəcərin Ağdaban kəndinin də qədim alban tayfasının adını daşıdığı güman edilir. Erməni vandallığı tarıxı abidələrimizə zərər vurmaqla öz vəhşiliklərini dünyaya göstərmiş oldular. Sübut etdilər ki, bu tarixi abidələr, bu torpaqlar hec zaman onların olmayıb. Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarı - "əkiz"lərdir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonuna səfər ediblər. Səfər çərçivəsində "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olublar. Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilərək bildirilib ki, yenidən inşa edilən "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 80 min kvadratmetr təşkil edəcək. Hazırda Kompleksin ərazisində 145 nömrədən ibarət olan hotel binasının, 10 kottecin və 5 inzibati binanın tikinti işləri aparılır. Kompleksin hotel binasında restoranlar, kafelər, konfrans zalı, bouling mərkəzi, uşaq əyləncə mərkəzi və müxtəlif əyləncə zonalarının fəaliyyət göstərməsi planlaşdırılır. Hotel binasının daxilində yerləşən və sahəsi 10 min kvadratmetr təşkil edəcək SPA Mərkəzində 16 müxtəlif təyinatlı açıq və qapalı hovuz, termal hamamlar, müalicəvi termal su vannaları, isti və soyuq su ilə kontrast terapiya hovuzu, termal hidrohovuzlar, təzyiqli su terapiya otağı, buxar otaqları, duz otağı, müalicəvi palçıq ilə prosedur otaqları, masaj otaqları, digər prosedur otaqları və istirahət zonaları nəzərdə tutulur. Kompleksin SPA Mərkəzinin mineral sularla müalicə, pelioidterapiya (palçıqla müalicə) və klimatoterapiya (iqlim müalicəsi) istiqamətləri üzrə fəaliyyət göstərməsi nəzərdə tutulur. Belə ki, "Yuxarı İstisu" yatağında yerləşən termal mənbələrdən Almaniyanın aparıcı laboratoriyalarından olan "SGS Institut Fresenius GmbH"ın mütəxəssisləri tərəfindən nümunələr götürülüb və suyun mineral analizi həyata keçirilib.

Aparılan analizlərin nəticələrinə və balneoloji rəylərə əsasən İstisu termal mineral suyu fizioloji, metabolik, müalicəvi təsirlərə malikdir və dayaq-hərəkət sistemi, sinir sistemi, ürək-damar sistemi, tənəffüs orqanları, mədə-bağırsaq sistemi, endokrin, immun sistemi, həzm sistemi, böyrək sistemlərinin fəaliyyətinin bərpasına və dermatoloji xəstəliklərin müalicəsinə effektiv təsir göstərir. Eyni zamanda, pelioidterapiya birləşdirici toxuma sisteminin, onurğa sisteminin, böyrəklərin fəaliyyətini bərpa edir və nevroloji pozuntular, otorinolarinqoloji və dəri xəstəliklərinin müalicəsinə müsbət təsir göstərir. Digər fəaliyyət istiqaməti olan klimatoterapiyada isə aerofitoterapiya, aeroterapiya, qelioterapiya və landşaftoterapiya metodlarından istifadə edilir.

**Prezident və birinci xanım Mehriban Əliyeva həmçinin Kəlbəcər rayonunda "İstisu" mineral su zavodunun açılışında da iştirak ediblər. Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma zavod barədə məlumat verib.** Bildirib ki, "İstisu" mineral su zavodu uzun illər Kəlbəcərin müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal su yatağından çıxan eyniadlı suyunu 30 illik müddətdən sonra yenidən istehlakçılara təqdim edir. Qeyd edək ki, 1976-cı ildən etibarən Kəlbəcər rayonunda "İstisu" mineral suyunun istehsalına başlanılıb. Bununla da nadir və faydalı mineral tərkibə malik "İstisu" təbii mineral suyu geniş coğrafiyada şöhrət tapıb. Mənbəyini Azərbaycanın Kəlbəcər rayonunun mənzərəli dağlıq bölgəsində, dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından götürən və təbii halda 60°C-dən yuxarı temperaturda çıxan "İstisu" mineral suyu regionun minerallarla zəngin nadir suyu kimi xarakterizə olunur. Torpaqlarımızın Ermənistan tərəfindən işğalı ilə əlaqədar 30 il ərzində "İstisu" təbii mineral suyunun istehsalı dayanıb. Təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan "İstisu" mineral su zavodunda işlər 2024-cü ildə tam başa çatdırılıb.

Dövlətimizin başçısı və birinci xanım zavodda istehsal prosesi ilə tanış oldular. Bildirilib ki, "İstisu" mineral su zavodu müasir avtomatlaşdırılmış sudoldurma xətləri və robotlaşdırılmış anbar idarəetmə sistemləri ilə təchiz edilib. İstehsal xətləri Almaniyanın "Krones" şirkəti tərəfindən təchiz edilib və quraşdırılıb. Ən son texnologiyaların tətbiqi nəticəsində zavodda yüksəkkeyfiyyətli mineral su istehsal edilməklə yanaşı, suyun təbii xüsusiyyətlərini qoruyub saxlamaq da mümkün olub.

"İstisu" zavodunun illik istehsal gücü 100 milyon şüşə butulkadan artıqdır. Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də müasir standartlara cavab verməsi ilə seçilir. Beynəlxalq təsnifat meyarlarına görə, Kəlbəcər rayonunda yerləşən təbii mineral su "İstisu" - natrium bikarbonat və sulfatla zəngin mineral su kimi təsnif edilir. Tərkibində olan kalsium, maqnezium, bikarbonat, sulfat və digər faydalı elementlər orqanizmə müsbət təsir göstərir.

"İstisu" təbii mineral suyu, eyni zamanda, yerli və beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verir. Belə ki, mineral su AZS 216-2006, İSO 9001:2015 və İSO 22000:2018 standartlarına uyğun olaraq sertifikatlaşdırılıb.

✍ **Sevinc**

# Ermənistanın təhlükəli oyunu

***Ermənistan sürətlə silahlanır. Hərbi büdcəsini 50 faizə yaxın artırıb, həmçinin Fransa, ABŞ və Hindistandan ölümcül silahlar əldə edir. Təbii ki, silahlanma prosesinin geniş vüsət alması, ermənilərin revanşist və başqasının malına göz dikmək kimi xüsusiyyətlərini yenidən qabardıb. Bu, özünü ardıcıl olaraq sərhəddə atəşkəsin pozulması, həmçinin erməni siyasilərin sərsəm bəyanatlarında büruzə verməkdədir. İndi də erməni baş nazir Nikol Paşinyan Azərbaycanın Avropa dövlətlərindən silah alışını Fransanın Ermənistanı silahlandırması ilə müqayisə etməyə cəhd göstərir.***



Onun arqumentləri elə özünün söylədikləri fikirlərlə mənasızlaşır. Qeyd edək ki, Azərbaycanın Avropa dövlətləri ilə hərbi əməkdaşlığında əsas istiqamət hücumdan daha çox müdafiə təyinatlı silahların alınması üzərində qurulur. Fransanın Ermənistana verdikləri isə daha çox hücum silahlarıdır.

■ **Politoloq Məhəmməd Əsədullazadənin qənaətincə, Ermənstanın silahlanması sülhə xidmət etmir. Bunungla yanaşı, Ermənistanın Azərbaycanı silah aldığına görə ittihamlaması özü absurddur:** "Əgər qarşında işğalçı, separatçı dövlət varsa, öz təhlükəsizliyini təmin etmək üçün mütləq tədbirlər görməlisən. Müharibə bir daha göstərdi ki, Azərbaycan öz ərazilərini işğaldan azad edərkən əsgəri bir qarış da olsa, Ermənistan ərazisinə daxil olmayıb. Azərbaycanın məqsədi öz torpaqlarını işğaldan azad etmək idi və etdi. Ermənistan sülhə imza atmalıdır, nəinki silahlanmaq". Ekspert qeyd edir ki, Azərbaycan nəqliyyat xarakterli təyyarələr, Ermənistan isə öldürücü silahlar alır.

"Ermənistanın ABŞ və Fransa tərəfindən silahlandırılması, verilən maliyyə dəstəyi bu ölkənin hərbi eskalasiyada maraqlı olduğunu göstərir və regionda gündəmi dəyişməyə çalışır. Maraqlı qüvvələr Azərbaycan şərtlər diktə etməyə çalışırlar. Azərbaycan qalib tərəfdir və heç bir ölkənin ərazilərini işğal etməyib. Ermənistan tərəfinin silahlandırılması, bu ölkədə revanşist qrupların qalması növbəti mərhələdə bölgədə hərbi gərginliyin yaradılması ehtiamalını artırır. İşğalçı Azərbaycana qarşı yenidən təcavüzkar siyasət həyata keçirə bilər. Ümumiyyətlə, məğlub olan və hələ də sülh müqaviləsinə imza atmayan, torpaq iddiasından əl çəkməyən ölkənin silahlanmasına imkan verilməməli, hətta aldığı silahlara ciddi nəzarət edilməlidir. Göründüyü kimi, Hindisatan, Fransa Amerika təlimatçıları Ermənistanın silahlanmasınada maraqldır. Burada hədəf Rusiya olsa da, hələ sülh müqaviləsi bağlanmadığına görə, Ermənistanın əlinə silah vermək olmaz".

■ **Hərbi ekspert Ədalət Verdiyev bildirir ki, Ermənistanın Laçın, Naxçıvan istiqamətlərində yeni hücum silahları yerləşdirməsi vəziyyəti gərşinləşdirir:** "Paşinyanın səsləndiridiyi son bəyanatlar qətiyyətlə regionda sabitliyin əldə olunmasına xidmət etmir. Əksinə, bu bəyanatlar 2020-ci il sentyabrın 10-a qədər olan bəyanatlar kimi Azərbaycanın səbir kasasını daşdırmağa yönəlib". Ə.Verdiyev hesab edir ki, Ermənistan baş nazirinin Azərbaycanın hərbi xərcləri ilə bağlı irəli sürdüyü rəqəmlər qətiyyətlə həqiqəti əks etdirmir. Onun sözlərinə görə, istənilən şəxs Azərbaycanın ümumi dövlət gəlirləri ilə müdafiə xərclərini üzləşdirib Paşinyanın nə qədər yanlış olduğunu görə bilər. "Ermənistan işğalçı tərəfdir. Azərbaycan isə işğala məruz qalan ölkə kimi öz ərazilərini azad edib. Yalnız hələ də dörd kəndimiz erməni işğalında qalmaqda davam edir. Belə olan halda işğalçı və məğlub Ermənistanın silahlandırılmasını və onun hərbi səviyyəsini qalib Azərbaycan ilə müqayisə etmək sağlam məntiqdən kənardır".

Hərbi ekspert qeyd edir ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək əvəzinə, gündəmə yeni mövzular daxil etməyə çalışır. "Son üç ildə belə tendensiyaları dəfələrlə izləmişik. Ermənistanın gündəmə gətirdiyi qoşunların geri çəkilməsi və

"

*Məğlub olan və hələ də sülh müqaviləsinə imza atmayan, torpaq iddiasından əl çəkməyən ölkənin silahlanmasına imkan verilməməlidir*

*Azərbaycan sərhədlərində - Laçın, Naxçıvan istiqamətində Ermənistanın yeni hücum silahları yerləşdirməsi isə vəziyyəti gərginləşdirir*

sair kimi çox sayda tezislərin heç biri Azərbaycan tərəfindən müzakrə belə edilməyib. Bütün bunlar göstərir ki, Ermənistan tərəfi üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınır, konstitusiya dəyişikliklərini üç il sonra müzakirəyə gətirəcəyini bildirir, Avropa missiyasını Azərbaycan sərhədlərində yerləşdirir və paralel olaraq sürətli şəkildə ABŞ, Fransa, Hindistan təərfindən silahlandırılır. Azərbaycan sərhədlərində - Laçın, Naxçıvan istiqamətində Ermənistanın yeni hücum silahları yerləşdirməsi isə vəziyyəti gərşinləşdirir".

✍ **Tahirə Qafarlı**

# Siyasi partiyalara nə qədər vəsait ayrılacaq?



***Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri siyasi partiya sisteminin yeni reallıqlar fonunda formalaşması, fəaliyyətinin dünya standartlarına uyğun nizamlanması baxımından yeni imkanlar yaradıb. Partiyalar müxtəlif sayda namizədlərlə seçkilərdə iştirak edib və bir neçə partiya uzun illərdən sonra ilk dəfə Milli Məclisə mandat ala bilib. Bununla da dövlət tərəfindən maliyyələşdirilən partiyaların sırasına daha bir neçəsi əlavə olunub. Qeyd edək ki, ilkin nəticələrə görə Milli Məclisin VII çağırış seçkilərində parlamentdə Yeni Azərbaycan Partiyası da daxil olmaqla, 10 siyasi partiya təmsil ediləcək.***

## Müzakirə

Beləliklə, YAP ən çox mandan qazanmış partiya ünvanını özündə saxlayıb. Onu üç nümayəndə ilə VHP, iki nümayəndə ilə Ədalət, Hüquq Demokratiya Partiyası izləyir. Digər partiyalar isə hərəyə 1 deputat mandatı ilə Ana Vətən, Böyük Quruluş, Azərbaycan Demokratik İslahatlar, Azərbaycan Demokratik Maarifçilik, Milli Cəbhə, Respublikaçı Alternativ partiyaları, eləcə də parlamentə yeni daxil olan AMİP, Böyük Azərbaycan Partiyası təmsil olunurlar.

Parlamentdə təmsil olunmayan 13 partiya da dövlətdən maliyyə yardımı alacaq. Bu siyahıda Müsavat Partiyası, Ağ Partiya (AğP), Azərbaycan Ümid Partiyası (ÜMİD), Azərbaycan Xalq Partiyası (AXP), Azərbaycan Demokrat Partiyası (ADP), Ədalət Partiyası, Müasir Musavat Partiyası (MMP), Klassik Xalq Cəbhəsi Partiyası (KXCP), Milli Dirçəliş Hərəkatı Partiyası (MDHP), Yeni Zaman Partiyası (YZP), Gələcək Azərbaycan Partiyası (GAP), Haqq Ədalət Partiyası (HƏP), Azad Vətən Partiyası daxildir. Qeyd edək ki, Azərbaycanda qeydiyata alınan 26 partiyadan yalnız biri - Azərbaycan Xalq Cəbhəsi Partiyası bütün seçkilərdə olduğu kimi növbədənkənar parlament seçkilərini boykot taktikasını seçib.

Qanuna əsasən parlamentdə təmsil olunmayan partiyalar da dövlətdən yardım ala biləcək. Əvvəlki qanunda vəsaitin bölünməsi ilə bağlı ilk hissə, demək olar ki, eynidir. Burada əsas fərq parlamentdə təmsil olunmayan partiyalarla bağlıdır. Əvvəlki qanunda parlamentdə təmsil olunmayan partiyalar dövlətdən yardım almaq üçün seçkilərdə ən azı 3% səs qazanmalı idi. İndi bu qayda ləğv edilib və maliyyənin ayrılması səs qazana bilən bütün partiyalara aid olacaq.

Yeni qanuna əsasən, dövlət tərəfindən ayrılan vəsaitin 40%-i parlamentə düşən partiyalar arasında bərabər bölünür. Vəsaitin 50%-i deputatların sayına, yəni 125-ə bölünür və alınan nəticə parlamentdə təmsil olunan partiyalardan seçilən deputat sayına vurularaq həmin siyasi partiyalara verilir. Vəsaitin 5%-i təkrar və əlavə seçkilər nəticəsində, həmçinin fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara ayrılır. Vəsaitin 2,5 faizi isə parlament seçkilərində iştirak edən və namizədləri etibarlı səs qazanan, lakin parlamentə düşməyən partiyalar arasında bərabər, yerdə qalan 2.5%-i isə həmin partiyalar arasında proporsional qaydada, aldıqları səsə uyğun olaraq bölünür.

Dövlətdən siyasi partiyalara ayrılan maliyə tutumu, bölünməsi qaydası parlamentdən kənarda qalan partiyaları nə dərəcədə qane edir? Bununla bağlı Qanunda dəyişikliyə ehtiyac varmı?

■ **Xalq Partiyasının sədri Pənah Hüseyn bildirir ki, parlamentdə təmsil olunmayan partiyalara 300-400 manat verilməsi ehtimal olunur ki, bu da heç hesabatı hazırlayanların maaşı etmir.**

"Əgər siyasi partiya kimi fəaliyyətimizi davam etdirsək, məsələni nəzərdən keçirib qərar qəbul edəcəyik. Doğrusu 300-400 manatlıq maliyyə yardımının qəbul olunması hesabat dövründə əlavə problemlər yaradır. Məndən asılı olsa, büdcənin xeyrinə bundan imtina edərəm".

Partiya sədri partiyalara maliyyə yardımının artırılması ilə bağlı xüsusi təklifinin olmadığını deyib.

■ **Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev seçkilərdə iştirakla bağlı təqdim etdikləri 13 namizəddən yalnız 3 nəfərinin iştirak edə bildiyini deyib.**

Bu seçkidən sonra ruhdan düşdüyünü bildirən H.Hacıyev ayrılacaq maliyyədən də imtina etmək niyyətindədir. "Həmin maliyyə partiyada heç nəyi həll etmir, o pul mənə lazım deyil"- deyə partiya sədri bildirir.

H.Hacıyev parlamentdə heç bir yer almadığına görə illərdir ona inanan partiya mənsublarına artıq deyəcək sözünün olmadığını bildirib.

■ **Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu bildirir ki, siyasi partiyalara maliyyə yardımının ayrılması partiyaların sağlamlaşması, dirçəlməsi və maddi, müstəqil olması baxımından dəstək verə bilər.** Onun fikrincə, dövlət qeydiyyatından keçmiş və seçki prosesində iştirak etmiş bütün partiyalara parlamentdə yer qazanmış partiyalar kimi ayrıca vəsait ayrılmalıdır.



"Bu ölkənin siyasi sisteminin güclənməsi üçün çox vacibdir. Əgər parlament partiyalarına 6 milyon manat ayrılırsa, parlamentdən kənar qalmış partiyalara bu məbləğin yarısı ayrılmalıdır ki, partiya institutu inkişaf edə bilsin, eyni zamanda. partiyaların seçkilərdə aktiv iştirakına stimul olsun. Dövlət qeydiyyatından keçmiş hər bir partiyanın 5000 üzvü var. Bu üzvlər dövlət büdcəsinə vergi ödəyirsə, bu, nəzərə alınmalıdır. Dövlətdən ayrılan maliyyə yardımını 6 milyon manat götürsək, bunun 5%-ı 300 min manat edir. 300 min manatı parlamentə düşməyən partiyalar arasında böldükdə bu məbləğ illik 18 min manat edəcək. Yəni aya, təxminən, 1500 AZN düşür. Bu isə istənilən məqsədə çatmaq üçün çox cüzidir".

■ **AĞ Partiya başqanın 1-ci müavini Əhəd Məmmədli "Siyasi partiyalar haqqında" qanunda dəyişikliklərlə bağlı qərara əsasən parlamentə keçə bilməyən partiyaların topladığı səsə uyğun maliyyələşəcəyinin yeni xəbər olmadığını deyib. O, bu məbləğin partiyalar üçün çox cüzi olduğunu deyib.**

"Ayrılan bu vəsait parlamentə keçən partiyalar üçün belə azdır. Bu, 300-400 manat edir ki, partiyalara heç nə vəd etmir. Siyasi partiyalar bu cür maliyyələşməməlidir. Siyasi partiyalar sistemini düzgün qurmaq istəyiriksə, maliyyələşmə də buna uyğun olmalıdır".

■ **ADP sədrinin müavini Taliyət Əliyev xatırladıb ki, dövlət tərəfindən partiyaların maliyyələşməsi ilə bağlı aparılan müzakirələr yeni deyil və bu 2022-ci ildə qəbul olunmuş "Siyasi partiyalar haqqında" qanunun tələbləri əsasında baş verəcək.**

"Əvvəlki qanunlarda yalnız parlamentdə təmsil olunan partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulurdu. Yeni qanuna görə, parlamentdə təmsil olunmayan amma seçkilərdə iştirak etmiş etibarlı səs qazanmış partiyalar da maliyyə yardımı alacaq. Bu cüzi rəqəm Partiyaların fəaliyyəti üçün yetərli rəqəm deyil. ADP olaraq seçkilərdə cəmi dörd nəfərimiz sona qədər iştirak etdi. İndi onların topladığı səslərin nə olacağı barədə bizdə dəqiq məlumat yoxdur. Buna uyğun olaraq partiyaya maliyyə yardımı ayrılacaq".

T.Əliyev hesab edir ki, qanunun bu maddəsinin yumşalmasına ehtiyac var. Bu vəsait siyasi partiyaların inkişaf etdirilməsi, saxlanılması, maliyyə probleminin həlli üçün yetərli deyil.

■ **Ədalət Partiyasının sədr müavini Mütəllim Rəhimov "Siyasi partiyalar haqqında" qanuna görə parlament seçkilərində iştirak etmiş, lakin Milli Məclisdə təmsil olunmayan partiyalara da növbəti ilin büdcəsindən maliyyə vəsaiti ayrılmasını çox yaxşı addım kimi dəyərləndirir:**

"Ədalət Partiyası seçkilərdə iştirak etsə də, Milli Məclisdə təmsil oluna bilmədi. Bununla belə dövlət büdcəsindən gələn il vəsait ala biləcək. Vəsaitin məbləği barədə dəqiq məlumatım yoxdur. Ona görə də vəsaitin bölgüsü barədə indidən nəsə demək çətindir. Nəzərə almaq lazımdır ki, bu sahədə ilk təşəbbüslərdir, onu yalnız alqışlamaq lazımdır. Hansısa ciddi catişmazlıqlar olarsa, gələcəkdə müzakirə etmək və aradan qaldırmaq olar".

■ **Milli Dirçəliş Hərəkatı Partiyası (MDHP) sədrinin müavini Həbib Ələkbərsoy qeyd edib ki, təkcə partiyaların maliyyələşməsi deyil, ümumiyyətlə, hakim partiyanın digər partiyalarla konstruktiv münasibətdə maraqlı olması, xüsusən dövlət orqanları ilə partiyalar arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi, eləcə də partiyaların dövlət tərəfindən qərərgahla təmin olunması və maliyyə dəstəyinin verilməsi ümumilikdə çoxpartiyalı sistemə verilən dəstək kimi qiymətləndirilə bilər və bu da olduqca təqdirəlayiq addımdır.** Partiyaların maliyyələşməsinə gəlincə H.Ələkbərsoy hesab edir ki, ayrılan vəsait bir partiyanın fəaliyyəti üçün əlbəttə qanedici məbləğ deyil.

"Dövlətin bugünkü mövcud imkanları daxilində atılan addım mahiyyət etibariylə təqdirəlayiqdir.

Bu gələcək perspektivlərin bazasıdır. Xüsusən müxalif partiyaların fəaliyyət üçün maddi imkanları olduqca məhduddur. Məsələyə "Güclü müxalifət güclü iqtidardır, güclü iqtidar da güclü dövlətdir" deyimi ilə yanaşdıqda, qanundakı son dəyişikliklə parlamentdə təmsil olunmayan partiyalara ayrılan maliyyə dəstəyinin məbləği olduqca kiçik bir rəqəmdir. Hesab edirik, bu, çoxpartiyalı sistemin qorunması istiqamətində atılan təqdirəlayiq addımdır".

✍ *Tahirə Qafarlı*



**Qabil Hüseynli,**
politoloq, professor

# Paşinyan danışıq tonunu dəyişir

***Cənubi Qafqaz regionu Qərbin, Avropanın bir sıra təsisatlarının təzyiq və təsirləri ilə qarışdırılır. 30 il erməni işğalına göz yuman, regionda hegemonluq etmək istəyən maraqlı güclər vəziyyəti beynəlxalq müstəviyə çıxarıb gərginləşdirmək üçün ciddcəhdlə çapalayırlar. Azərbaycana qarşı hücumların BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində müşahidə olunmaqla ardıcıl xarakter daşıması diqqətdən yayınmır. Eləcə də Qarabağ ermənilərinin geriyə qaytarılması, cinayətkar separatçı ermənilərin həbsdən çıxarılması kimi iddialarla bu bölgəni gərginlik ocağı kimi saxlamaq niyyətlərindən əl çəkmirlər. Politoloq, professor Qabil Hüseynli ilə də elə bu mövzulara dair söhbətləşdik:***

## Müsahib

***- Son zamanlar bölgəmizlə bağlı müşahidə etdiyimiz oyunlar sülh müqaviləsinin imzalanması prosesinə necə təsir göstərir?***

- Ermənipərəst qüvvələr, Rusiya, əsasən də Avropa dövlətləri, ABŞ, Fransa vəziyyəti mürəkkəbləşdiriblər. Sülh müqaviləsinin gecikdirilməsində bizim özümüzün də yol verdiyimiz yumşaq yanaşmalar var. Müharibədən dərhal sonra Ermənistanı sülh müqaviləsini imzalamağa məcbur etməli idik. Kapitulyasiyaya imza atan məğlub bir ölkənin danışıqlara cəlb edilib şərtlər diktə etməsinə icazə verilməməli idi. Azərbaycan Ermənistanla danışıqlar aparıb məsələni daha sivil formada həll etməyə çalışdıqca, Paşinyan oliqarx ermənilərin və havadarlarının diqtəsi ilə ritorikasını dəyişdi. Danışıqlar uzandıqca və Avropa İttifaqı, ABŞ kimi qüvvələr prosesə qarışdıqca, nəticə əldə edilməsi çətinləşir. İndi sülh müqaviləsinin imzalanması məsələsini ortaya atdıqları absurd, əsassız şərtlər, iddialar ilə pərdələməyə, yaxud öz şərtlərini irəli sürməyə çalışırlar.

Üstəlik, Ermənistan Azərbaycanla şərti sərhədlərdə hərbi təxribatlar törətməkdən çəkinmir. Ermənistanın bu cürəti haradan və necə aldığı da hər kəsə bəllidir. Müharibədən sonra Ermənistana mülki missiya adı ilə gələn Avropa İttifaqının müəyyən dəstələri, eləcə də Ermənistanın ciddi şəkildə ABŞ, Fransa, Hindistan tərəfindən silahlandırılması, keçilən hərbi təlimlər bu ölkəni yeni müharibəyə, revanşa həvəsləndirib. Bundan sonra başda Amerika olmaqla Avropa Birliyinin də bəzi ölkələri, xüsusən də Fransa Ermənistanı Azərbaycana qarşı çıxış etməyə sövq etməklə, bölgədə yeni gərginlik ocağı hazırlamaqda davam edəcəklər. Azərbaycan güclü dayanışı, təmkinli adekvat mövqeyi ilə bu qrupları yerində oturda bilər.

***- Avropa, Qərb dairələri Ermənistanı sülh müqaviləsindən yayındırmaqla və bölgədə gərginliyi artırmaqla hansı dəyişikliyə nail ola bilər?***

- Məsələn, ABŞ bütün gücü ilə çalışacaq ki, Azərbaycandan çıxıb-getmiş ermənilərin hamısını olmasa da, müəyyən qismini geriyə qaytarsın. Bundan başqa, Qərbin, Avropa Birliyinin Azərbaycanda bəyənmədiyi bir sıra səbəblər var. Belə ki, "seçki, siyasi məhbus", "ifadə azadlığının pozulması, məhkəmə qanunlarının işləməməsi", "mətbuat azadlığının boğulması" ilə bağlı bir sıra "nöqsanlar"ı qeyd edirlər. Əlbəttə ki, Azərbaycan bu səbəbləri əsassız hesab edir və bunlarla razılaşmır.

***- Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərindən sonra Ermənistan baş naziri ilə telefon danışığı nəyi ifadə edir? Azərbaycanla kommunikasiyaların, Zəngəzur dəhlizinin açılması üçün təsiri ola bilər?***

- Rusiya prezidentinin danışıqlarına, söylədiklərinə o qədər də bel bağlamıram. Rusiya həmişə Ermənistanı müdafiə edib. Son vaxtlar onun üçün ən maraqlı məsələ Zəngəzur dəhlizinin açılmasıdır. Rusiya Zəngəzur dəhlizi vasitəsilə Şərqə açılmalıdır. Onun üçün Qərb yolu bağlanıb. Rusiya istəyir ki, Azərbaycanın nəqliyyat qovşaqları, Zəngəzur dəhlizi vasitəsilə Yaxın Şərqə çıxışlar əldə edib özünün neftini, qazını mühüm bazarlara çıxarsın və bir sıra digər problemlərini bu yolla həll eləsin. Rusiya Prezidentinin bu zənglə nəyə nail olmaq istəyinə gəlincə, bu barədə dəqiq fikir bildirmək çətindir. Rusiya Ermənistanı Zəngəzur dəhlizinin açılmasına maneə yaratmamağa razı sala bilər. Rusiya bunu İran vasitəsilə edə bilər. İran da Şimal-Cənub dəmir yolu dəhlizindən Azərbaycanı çıxarmaq istəyir. Şimal, Xəzər dənizi və Bəndər-Ənzəli vasitəsilə bu nəqliyyat qovşağını qurmaq istəyir. Yalnız bunun qarşılığında Zəngəzur yolunun açılmasına razılıq verə bilər.

***- Mövcud proseslər fonunda indiki vəziyyətdə Ermənistanın sülh müqaviləsi naminə özünün konstitusiyasında dəyisiklik edəcəyi mümkün görünürmu?***

- Bunu söyləmək çətindir. Bu, iki dövlət arasında münasibətlərin qurulmasından asılı olacaq. Bu məsələdə də çətinliklər var. Burada elə müddəalar var ki, daha çox Türkiyəyə toxunur. Ona görə də Türkiyə bu işdə önə çıxmalıdır. Ermənistan sərhədlərin açılmasını, normal münasibətlərin qurulmasını və bölgədə inkişaf etmək istəyirsə, bu addımları atmağa məcburdur.

***- Sülh müqaviləsinin bağlanmasında ikitərəfli formatın işləməsi nə dərəcədə əhəmiyyətlidir?***

- Bir qədər əvvəl sərhədlərdə ölçülər aparılmaqla dirəklər basdırıldı. Sərhədin 13 kilometri dəqiqləşdirilib, üstəlik, bu istiqamətdə əsas götürülən Almatı prinsipi də

*"Kommunikasiya xətlərinin sülh mətnindən çıxarılmasına gəlincə, bu, heç bir tərəf üçün yaxşı hal deyil*

dəqiqləşdirilib. Həmin prinsiplərə əsasən sərhədlərin delimitasiyası, demarkasiyası aparılmalıdır. Sərhədlərin müəyyənləşdirilməsi prosesi dayanıb. Görünən budur ki, bu məsələdə də müəyyən əngəllər baş qaldırıb. O ki qaldı Ermənistanla danışıqların ikitərəfli format müstəvisində aparılmasına, biz bunu müdafiə edən tərəfik. Üçüncü tərəfin müdaxiləsi olmadan danışıqların aparılmasını daha əlverişli hesab edirik. Bunun əyani nəticələrini də gördük.

ABŞ kimi üçüncü tərəflər prosesə qoşulanda məsələyə bitərəfli yanaşır, problemi Ermənistanın xeyrinə həll etməyə çalışırlar. Qərb ölkələrinin çoxu Ermənistanın tərəfini tutur. Belə olan təqdirdə istənilən nəticəni almaq çətinləşir. Kommunikasiya xətlərinin sülh mətnindən çıxarılmasına gəlincə, bu heç bir tərəf üçün yaxşı hal deyil. Kommunikasiyaların sülh mətnindən çıxarılması ABŞ-nin təzyiqi ilə baş verir. ABŞ bununla Rusiyanı bölgədən sıxışdırmaq, özünün mövqelərini bölgədə gücləndirmək istəyir. Mövcud vəziyyəti ümumiləşdirsək, belə bir fonda sülh müqaviləsinin yaxın vaxtda bağlanması problemli görünsə də, mümkündür.

✍ *Tahirə Qafarlı*

# Ailələrdə uşaqların sayı azalır

## Layihə

***Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə 1 milyon 347 min 534 uşaqlı ev təsərrüfatı var. Onların 725 min 615-i şəhər yerlərində, 621 min 919-u isə kənd yerlərində yaşayıb. Biruşaqlı ev təsərrüfatılarının sayı 422 989-dur, onlardan 241 min 234-ü şəhər yerlərində, 181 min 755-i kənd yerlərində yaşayıb. İkiuşaqlı ev təsərrüfatlarının sayı 557 min 814-dür, onlardan şəhərdə yaşayanların sayı 295 min 884, kənddə yaşayanların sayı isə 261 min 930-dür. Üçuşaqlı ev təsərrüfatlara gəlincə, bu kateqoiyaya daxil olan ailələrin 132 min 957-si şəhər yerlərində, 123 min 304-ü kənd yerlərində yaşayıb.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

*“Bu istiqamətdə dəstəkləyici mexanizmin təkmilləşdirilməsinə ehtiyac var*

Son rəqəmlərə görə, Azərbaycanda 71 min 151 dörduşaqlı ev təsərrüfatı var. Onların 37 min 58-i şəhər yerlərində, 34 min 93-ü kənd yerlərində yaşayır. Həmçinin şəhər yerində yaşayan 11 min 313, kənddə yaşayan 11 837, yəni ümumilikdə 23 min 150 ev təsərrüfatı beşuşaqlıdır. Altı uşaqlı ev təsərrüfatlarına gəlincə, 9332 təsərrüfat bu kateqoriyadadır. Onların 4338-i şəhər yerlərində, 4994-ü isə kənd yerlərində yaşayıb. Həmçinin ölkədə 6837 ev təsərrüfatı yeddi və daha çox uşaqlı ev təsərrüfatları arasında yer alır. Onların 2831-i şəhər yerlərində, 4006-sı isə kənd yerlərində yaşayıb.

Qeyd edək ki, son illər Azərbaycan ailələrində uşaq sayının azalması ciddi müzakirə mövzusudur. Mütəxəssislər mövcud vəziyyəti müxtəlif səbəblərlə izah edirlər. Bəziləri qeyd edirlər ki, cəmiyyətdə sosial-iqtisadi vəziyyət zəiflədikcə ailələrdə uşaqların sayı azalır. Bəzi ekspertlər isə bu qənaətdədirlər ki, ölkəmizdə bir çox ailələr Avropa quruluşunu seçərək 1-2 uşağa üstünlük verməyə çalışır.

Yeri gəlmişkən, amerikalı psixoloq Suzan Nyuman xoşbəxtlik üçün optimal uşaq sayını açıqlayıb. Psixoloq deyib ki, ailədə ikinci uşağın dünyaya gəlməsi valideynlərin, xüsusən də anaların karyerasına, ailənin maddi vəziyyətinə, qohumlar və dayələrdən lazım olan dəstəyin miqdarına kəskin şəkildə təsir edir. Onun fikrincə, ikinci uşağın olması ananın psixi sağlamlığına acınacaqlı təsir göstərir. Belə ki, Nyumanın istinad etdiyi Pensilvaniya Universitetinin sosiologiya və demoqrafiya professoru Hans-Peter Kohler sorğu zamanı müəyyən edib ki, əgər ailə firavanlığa nail olmaq istəyirsə, bir uşaqla kifayətlənməlidir. Onun qənaətincə, ikinci və ondan sonrakı övladlar valideynləri daha xoşbəxt etmir. Kohlerə görə, ikinci uşaq dünyaya gətirməyə qərar verən cütlüklər öz istək və imkanlarını nəzərə almırlar. Tədqiqatçının fikrincə, çoxları birincinin gətirdiyi xoşbəxtlikdən ötrü ikinci övladını ehtiyatsızlıqla planlaşdırır. “Adətən insanlar valideyn olduqdan sonra xoşbəxtlik dalğası yaşayırlar, lakin bu “əlavə” xoşbəxtlik bir neçə il ərzində yox olur”, - deyə o qeyd edib. Bəs, görəsən, Azərbaycan ailələrində uşaq sayının azalmasına səbəb nədir? Bu istiqamətdə stimullaşdırıcı tədbirlərin görülməsinə ehtiyac varmı? Ümumiyyətlə, ailələrin xoşbəxtliyi uşaq sayından nə dərəcədə asılıdır?

Məlumat üçün bildirək ki, hazırda ölkəmizdə 2500-dən çox qadın çoxuşaqlı anadır. Son beş ildə çoxuşaqlı ailələrə verilən müavinətin məbləği 3.5 dəfə artırılaraq 105 manata çatdırılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, hazırda 12 minə yaxın uşaq üçün bu sosial müavinət alan qadınların sayı 2 min 600-dən çoxdur. Eyni zamanda, aztəminatlı ailələrdə 1 yaşadək hər uşağa görə 100 manat müavinət nəzərdə tutulub: “Bu müavinətin məbləğində son beş il ərzində 82 faiz artım olub”.

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Rəşad Həsənov bildirib ki, bu istiqamətdə dəstəkləyici mexanizmin təkmilləşdirilməsinə ehtiyac var: “Hazırda beş və ondan artıq uşaq olan ailələrə yeganə dəstək mexanizmi hər uşağa görə aylıq 105 manat müavinət və valideynlərin pensiya yaşının 5 il azaldılmasıdır.**

105 manata görə kimsə ailədə uşaqların sayını artırmaq riskini öz üzərinə götürməz. Biz bu istiqamətdə referensial yanaşma əsasında uşaq sayına görə müavinətlərin ödənilməsini təklif edirik. Uşaq sayı artdıqca hər uşağa görə ödənilən müavinətin məbləğinin artması çoxuşaqlılığı təşviq etməyə hesablanmış və dünyada sınaqdan çıxmış mexanizmlərdən biridir”.

R.Həsənovun fikrincə, çoxuşaqlı ailəyə yanaşma dəyişməlidir və çoxuşaqlı ailə beş uşaqlı yox, üç uşaqlı ailə sayılmalıdır: “Ukraynada hələ 2008-ci ildən “çoxuşaqlı ailə” anlayışı üç uşaqlı ailəyə münasibətdə tətbiq edilir. Bu yanaşmanı tətbiq etməklə Azərbaycanda çoxuşaqlı ailələrə münasibətdə mövcud olan müavinət mexanizminin əlçatanlığını artırmaq olar. Əslində uşaqların müdafiə proqramları yalnız demoqrafik deyil, eyni zamanda, sosial, insan kapitalının inkişafı və sağlam həyat aspektləri nəzərə alınmaqla işlənib hazırlanmalıdır”.

■ **Məsələ ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu deyib ki, əhali artımı dünyanın ən qlobal problemlərindəndir: “Əslində ailədə tək övladın olması arzuolunan deyil. Çünki ailədə uşaq yeganə olanda ən əsası ölkədə əhali artımı getdikcə azalır.**

Məlum olduğu kimi, hər insan evlənə və yaxud iki uşaq sahibi ola bilmir, bu da əhali artımına təsir göstərir. Eyni zamanda tək uşağın olmasının psixoloji tərəfləri olur. Belə ki, tək olanda, ailədə onun tay-tuşu uşaqlar deyil, ata-ana, nənə-baba olur. Bu zaman

*“Əslində, ailədə tək övladın olması arzuolunan deyil*

uşaq eqoist böyüyür. Beləliklə, ən arzuolunan hal odur ki, ailədə 3 uşaq olsun. BMT bununla bağlı bəyanatı var. Həmin bəyanatda bildirilir ki, heç bir dövlətə və yaxud ailəyə deyilə bilməz ki, uşaqların sayı neçə olsun. Lakin uşaqların sayı o qədər olsun ki, onlar keyfiyyətli böyüsün. Əslində bu doğru fikirdir. Bizə gərəkli deyil ki, ailədə 10 uşaq olsun və onlardan kimsə xəstə və yaxud savadsız olsun. Ondansa az olsun, amma keyfiyyətli olsun”.

Ekspert uşaq sayının ailələrin xoşbəxtliyinə təsir etməsi fikri ilə də razılaşmır. Onun sözlərinə görə, ailədəki xoşbəxtliyi aydınlaşdırmaq üçün ilk öncə insan xoşbəxtliyinin nə olduğunun araşdırmaq lazımdır:

“Xoşbəxtliyin özü nədir? Alimlər 200 ildir ki, bu suala cavab tapmağa çalışırlar və hələ də dəqiq tərif yoxdur ki, xoşbəxtlik nə olan şeydir. Amerikalılar üçün yalnız özlərinə məxsus praqmatik dəyərlər var və ona uyğun həyatlarını görürlər. Həmin dəyərlərə mane olan amilləri isə onlar xoşbəxtliyə mane olan amillər adlandırırlar. Əgər Qərbin dedikləri doğru-dürüst olsaydı, onda Qərb, dünya bu gündə olmazdı. Mən, ümumiyyətlə, heç vaxt tərəfdarı deyiləm ki, Qərb ölkələrinin psixoloqlarının fikirlərini, hazırladıqları testləri avtomatik olaraq biz də qəbul edək. Çünki məlum Qərb psixologiyası, xristian dəyərləri var. Qərbin ailə, karyera, şəxsi həyatla bağlı özünəməxsus fikirləri var.

Və Qərb, Amerika belə fikirləşirsə, o demək deyil ki, onlar daha qabaqcıl, müasirdirlər. Biz çox hallarda təhlil edəndə görürük ki, onların dedikləri səhvdir. Bəs azərbaycanlılar üçün xoşbəxtlik nədir? Azərbaycanlı nə vaxt həyatda özünü məmnun hiss edir? Bunu aydınlaşdırmadan qərbli psixoloqların fikrini avtomatik qəbul edə bilmərik. Digər tərəfdən, hətta aydınlaşdırsaq ki, cəmiyyətimizi xoşbəxt edən nədir, həmin xoşbəxtliyin həqiqi və yaxud yalançı olmasını da araşdırmalıyıq. Beləliklə, məsələni daha dərin təhlil etməli, daha sonra isə bunu doğulan uşaqların sayı ilə əlaqələndirməliyik”.

*“Ailə psixoloqları da qeyd edirlər ki, valideyn özünü əsl valideyn kimi daha çox ikinci uşaqda hiss edir*

■ **Mövzu ilə bağlı psixoloq Elnur Rüstəmov qeyd edib ki, Azərbaycanda ailələrdə uşaqların sayı bir qayda olaraq 2-dən az olmur: “Reallıqda görürük ki, əvvəlki illərlə müqayisədə ailələrdə uşaqların sayı azdır, amma ailədaxili konfliktlər, boşanmalar daha da artıb.**

Əlbəttə ki, ailədə 2 uşaq olanda ailədə tərəflərin bir-birinə münasibəti, psixologiyası tamamilə başqa, fərqli olur. Məsələn, ailə psixoloqları da qeyd edirlər ki, valideyn özünü əsl valideyn kimi daha çox ikinci uşaqda hiss edir. Çünki birinci uşaqda valideyn təcrübəsiz olur və adəti üzrə Azərbaycan ailəsinə xas olaraq, nənələr ilk uşağa dəstək olmaq üçün dövriyyəyə girirlər. Həm də bu köməyə dəstəyin mahiyyəti ondan ibarətdir ki, qarşı tərəf təcrübəsizdir, ilk dəfə ana olur və bu prosesi yürütmək üçün ona kömək edirlər. İkinci uşaqda isə artıq ana daha təcrübəli olur və bu prosesdə daha təcrübəli davranmağa başlayır.

Bu baxımdan, hesab edirəm ki, amerikalı psixoloqların bu araşdırmasının niyyəti başqadır. Heç kimə sirr deyil ki, son illərdə dünyada ailələrdə uşaqların sayı azalır, uşaqlarla bağlı müxtəlif narahatlıqlar var. Bəziləri bu istiqamətlə insanların sayının azalmasına çalışır. Vaxtilə Çində bu prosesi aparmışdılar. Bu ölkədə əhalinin sayı çoxdur, prosesin öhdəsindən gəlmək mümkün olmadığına görə də belə bir istiqamət ortaya qoydular və ailədə nəinki üç, hətta iki uşağın olması qadağandır. Bununla da demoqrafik vəziyyəti nəzarətə almağa çalışdılar.

Gəlin baxaq, əgər ailə bir uşaqla xoşbəxtdirsə, o ailənin uşaqdan gözləntisi hansı dərəcədə olacaq və o bir uşaqda ailənin gözləntisini doğrultmaq potensialı olacaqmı və olacaqsa, bu, hansı səviyyədə olacaq. Yəni bu məqamlar var. Hər kəsə məlumdur ki, ailədə 2-3 uşaq olduqda həmin uşaqların hər birinin potensialı fərqli olur. Bu baxımdan, hesab edirəm ki, ailədə azı 2 uşaq olmalıdır. Bəs belə olduqda ailə sosial qayğılarını, problemlərini daşıya biləcəkmi? Bu artıq başqa məqamlardır. Ona qalsa, dədəbabadan eşitmişik ki, hər bir uşaq özü ilə birgə öz ruzisini də gətirir. Ona görə də ikinci uşaqla ailə xoşbəxt olmur demək mübahisəli, hətta şübhəli məsələdir”.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Əhalinin 99 faizi sürətli internetlə təmin olunur

***2026-cı ilin sonunadək Azərbaycanda 1 milyon vətəndaşın rəqəmsal (digital) şəxsiyyət vəsiqəsindən istifadə edəcəyi planlaşdırılır. Bu fikirləri rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov “Kağızsız Hökumət: Rəqəmsallaşma və İnnovasiyanın Ətraf Mühitə Təsiri” adlı beynəlxalq tədbirdə çıxış edərkən deyib. Nazir müavininin sözlərinə görə, əhalinin 65 faizinin rəqəmsal vərdişlərinə yiyələnməsi əsas hədəflərdəndir: “2024-cü ilin sonunadək ölkədə bütün ev təsərrüfatlarını yüksək sürətli internetlə təmin etməyi planlaşdırırıq.***

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən “Onlayn Azərbaycan” layihəsi çərçivəsində ümumilikdə ölkədə 2,7 milyon təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin olunub. Sözügedən layihə çərçivəsində 2024-cü ilin sonunadək ölkə ərazisində bütün ev təsərrüfatı, biznes subyektlərinin GPON və digər genişzolaqlı texnologiyalar vasitəsilə genişzolaqlı internetlə təmin edilməsi, yüksəksürətli internetdən istifadənin genişləndirilməsi və sabit genişzolaqlı internet abunəçilərinin faizinin artırılması planlaşdırılır”, - deyə Samir Məmmədov əlavə edib.

”Ümid edirəm ki, gələn həftələr ərzində ”Onlayn Azərbaycan” layihəsini başa çatacaq, bununla da evlərin 100 faiz sürətli internetlə təmin olunacaq. Bu gün Azərbaycan əhalisi 99 faiz sürətli internetlə təmin olunur. Həmçinin böyük məmnuniyyətlə bildirmək istərdim ki, ölkəmizdə hər bir kənddə genişzolaqlı internet bağlantısına çıxışı olacaq”. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov söyləyib. ”Elm və təhsil Azərbaycanın rəqəmsallaşma və transformasiya sahəsində göstərdiyi səylər üçün olduqca zəruridir. Bu xüsusda insan resurslarının gücləndirilməsi bu prosesin ana xəttini təşkil edir. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin rəhbərlik etdiyi ”Technest” Təqaüdü və Holberton Məktəbi kimi təşəbbüslər ixtisaslı işçi qüvvəsinin yaradılmasında mühüm rol oynayır.

Bu günədək Azərbaycanda ”Technest” vasitəsilə 8000-dən çox təqaüd verilib. Holberton Məktəbi ölkənin texnoloji istedadını daha da zənginləşdirir, bu günə qədər 43 məzun və daha 88 nəfər hazırda davam edən kompüter elmləri və proqram təminatının inkişafı kurslarında iştirak edir”, - deyə nazir müavini bildirib.

Azərbaycan Rəqəmsal Sənəd Dövriyyəsi layihəsi vasitəsilə daha davamlı və səmərəli idarəçiliyin yaradılması istiqamətində mühüm addımlar atıldığını vurğulayan Samir Məmmədov deyib: “Bu layihə hökumət qurumlarının əməkdaşlığında inqilab yaradan sürətli, təhlükəsiz və ekoloji cəhətdən təmiz bir həll təqdim edir. Hazırda Azərbaycanda 1000-dən çox təşkilat bu sistemə qoşulub və hər ay 500 000-dən çox sənəd rəqəmsal şəkildə işlənir. Bu, hər il 2000-dən çox ağacın xilas edilməsinə bərabərdir ki, bu da ekoloji məqsədlərimizə əhəmiyyətli töhfə verir.

Rəqəmsal Sənəd Dövriyyəsinin üstünlükləri aydındır: sənədlər dərhal çatdırılır, təhlükəsizlik gücləndirilir və kağızdan istifadə əhəmiyyətli dərəcədə azalır. Rəqəmsal Sənəd Dövriyyəsi ilə sənədlərin hazırlanması, göndərilməsi və təsdiqlənməsi daha sürətli, daha təhlükəsiz və asan olur. Bu, bizi həqiqətən sənədsiz hökumətə və davamlı rəqəmsal gələcəyə bir addım yaxınlaşdırır”, - deyə Samir Məmmədov əlavə edib.

✍ **Rəna**

## XƏBƏRİNİZ OLSUN...



■ ABŞ prezidentliyinə namizəd Kamala Harrisin seçkilərdə qalib gəlmək şansı daha yüksəkdir. Bu, Britaniyanın “The Deyli Teleqraf” nəşrinin iştirakı ilə keçirilən sorğunun nəticələrində qeyd olunub. Bildirilib ki, “Redfild və Uilton Strateci” tərəfindən tərtib edilən məlumata görə, Harrisin Pensilvaniya, Viskonsin və Miçiqan kimi ştatlarda qalib gəlmə şansı var.

■ Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən 2024-cü ilin avqust ayı ərzində Bakı şəhəri və digər rayonlar üzrə ümumilikdə 44 aptekdə yoxlama aparılıb. 31 aptekdə planlı, 13 aptekdə plandan kənar yoxlama keçirilib. Qeyd edilib ki, yoxlamalar zamanı 2 aptekdə nöqsanlar aşkarlanıb.

■ Türkiyə BRICS-də tam formatlı iştirak üçün müraciət edib. Bunu Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov bildirib. Kreml rəsmisi vurğulayıb ki, Türkiyənin müraciətinə baxılacaq.



■ Salome Zurabişvili faktiki olaraq Gürcüstanın Prezidenti deyil. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib. Onun sözlərinə görə, Salome Zurabişvili Konstitusiyanı pozduqdan sonra faktiki olaraq Gürcüstanın Prezidenti deyil:

■ Ukrayna ordusunda Rusiyaya qarşı döyüşən MDB ölkələrinin vətəndaşlarının sayı açıqlanıb. Bu barədə MDB Antiterror Mərkəzindən bildirilib. Qeyd olunub ki, MDB ölkələrindən olan 300-dən çox şəxs Ukrayna ordusunun tərkibində Rusiyaya qarşı vuruşur.

■ Ukrayna ordusunun daha bir Azərbaycan əsilli hərbçisi Rusiya ilə müharibədə həlak olub. Bu barədə ”Şepot Fronta” Teleqram kanalı məlumat yayıb. Bildirilib ki, Ukrayna Silahlı Qüvvələrinin tərkibində döyüşən Emil Vahid oğlu Ağabəyov Rusiyanın Kursk vilayətində həyatını itirib.



■ Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə bu ilin iyul və avqust ayları ərzində Bakı şəhəri üzrə suda boğulma hadisəsi ilə bağlı 38 nəfərin müraciəti qeydə alınıb. Bu barədə mərkəz məlumat yayıb. Qeyd olunub ki, suda boğulanlardan 32-si kişi, 6-sı qadın olub.

■ Paris-2024 Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan türkiyəli atlet Sərkan Yıldırımın medalı Beynəlxalq Paralimpiya Komitəsinin etirazı nəticəsində geri alınıb. Bu barədə Türkiyə Milli Paralimpiya Komitəsi məlumat yayıb. Bildirilib ki, buna səbəb Beynəlxalq Paralimpiya Komitəsinin məhkəməyə şikayət etməsi olub.

# Qərbi Azərbaycan Mühacirət Hökuməti yaradıla bilər

***2020**-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun əks-hücumu nəticəsində başından dəmir yumruq zərbəsi alan separatçı Ermənistan hələ də sərsəmləyir, cəfəng iddialarla ortalığı qarışdırmağa cəhdlər edir. Ermənistan rəhbərliyinin sülh müqaviləsini imzalamaması və ərazi iddiaları ilə bağlı konkret mövqe nümayiş etdirməyib vaxtı uzatması bölgədə sülhə təhlükə olaraq qalır. Erməni separatçıları köhnə ab-havalarında iddialarından əl çəkmir, məğlub dövlət ordusunu gücləndirir, sülh gündəliyi ilə bağlı konkret addımlar atmır, Azərbaycana qarşı revanşist iddialar davam etdirirlər. Separatçı rejimin sonuncu başçısı Samvel Şahramanyan və digərləri yenə Qarabağ ermənilərinə müraciət edərək işğalçı planlarından danışıblar.*

## Müsahib

Qondarma rejimin tör-töküntüləri, Ermənistanın sabiq xarici işlər nazirinin rəhbərlik etdiyi “repatriasiya komissiyası”nın Ermənistanda fəaliyyət göstərməsi bu planın tərkib hissəsidir. Belə bir vəziyyətdə Azərbaycan Dövləti öz torpaqlarından didərgin düşmüş azərbaycanlıların təhlükəsizliyinin təmin olunması və sülhün bərqərar edilərək öz yurdlarına qaytarılması üçün hansı addımlar atmalıdır? Qərbi Azərbaycan İcmasının sədr müavini Hikmət Babaoğlu bu yöndə mühüm məqamlara diqqət çəkib.

***- Bir il əvvəl qondarma rejimin buraxılmasına imza atan separatçı lider Şahramanyan indi Azərbaycanla söz oyununa başlayıb. Bu faktın özü hansı addımların atılmasını tələb edir?***

- 44 günlük müharibədən sonra ötən 4 ildə Ermənistanın davranışlarını təhlil etsək sülhü istəmədiklərini açıq şəkildə görəcəyik. Bu müddət ərzində Ermənistanın aldığı bütün qərarlar, diplomatik mövqeləri sülhün əleyhinə olub, regionda silahlanmaq üçün yeni şərtlər formalaşdırıb. Ona görə də Ermənistanın qısa müddətə sülhə doğru addım atması gözlənilən deyil.

Təəssüf ki, Ermənistan bölgədə gərginliyi artırmaq üçün danışıqlar prosesində yeni bir səhifə açmağa çalışır. Ermənistan, təqribən, 1 il əvvəl Azərbaycanın Qarabağ ərazisini öz istəkləri ilə könüllü tərk edən, Azərbaycan vətəndaşı olmaq istəməyən erməniləri dünyaya “zorla qovulmuşlar” kimi göstərməyə çalışır. Təbii ki, bu, avantüradır və separatçı Şahramanyanın öz imzası ilə başçılıq etdiyi dəstəsini buraxdığı faktdır. Bu gün tamamilə fərqli bəyanatlar verərək həmin ermənilərin “hüquqlarının” müdafiəsindən danışır. Bu, tamamilə yolverilməzdir. Bu bir daha təsdiq edir ki, Ermənistan hələ də sülhə hazır deyil, revanşist iddialarından əl çəkməyib. Əksinə, Qarabağda yaşamış separatçıların, mülki ermənilərin Azərbaycan Konstitusiyasına tabe olmaması hər birinin bu və ya digər formada potensial cinayətkar kimi təhlükəli olduğunun göstəricisidir. Bu, özünü fərqli istiqamətlərdə - birbaşa hərbi terror, siyasi, ekoloji, fiziki terrorla göstərə bilər.

Yalnız və yalnız 2023-cü il sentyabrın 19-da həyata keçirilən antiterror əməliyyatından sonra substantiv sülh üçün real şərtlər formalaşdı. Bir müddətdir ki, ermənilər sülhü təmin etmək üçün real addımlar atmırlar. Belə olan halda onlar vəziyyətin tam əksi olaraq tarixi kökləri, hadisənin başvermə səbəbləri tamamilə fərqli olan iki hadisəni - Qarabağdan könüllü gedən ermənilərlə, 1987-1989-cu illərdə Qərbi Azərbaycandan deportasiya edilən, terrora, soyqırıma məruz qalan azərbaycanlıların üzləşdiyi faktları eyniləşdirməyə çalışırlar. Bütün bunlar absurddur, yolverilməzdir.

***- Qərbi Azərbaycan İcması yaydığı son bəyanatla Ermənistanda revanşist qüvvələrin, qondarma rejimin Azərbaycanı təhdid edən təxribatçı açıqlamalarına, Qərbdəki havadarlarına arxalanaraq “beynəlxalq təminat altında Qarabağa qayıdış” iddialarına qarşı hansı mesajını vermis oldu?***

- Şübhəsiz ki, qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtması istəyi tamamilə fərqli, haqlı tələbdir, beynəlxalq hüquqla icrası mümükün olan məsələdir. Bu, əsla ermənilərin sərsəm qərəzli tələbləri ilə eyniləşdirilə bilməz. Ona görə də Qərbi Azərbaycan İcması məsələni fundamental və tamamilə fərqli şəkildə qoyur. Ermənistan tərəfinin sonuncu aqressiv mövqelərindən sonra Qərbi Azərbaycan İcması bəyan etdi ki, azərbaycanlıların Ermənistan vətəndaşı olaraq Ermənistana qayıdışına imkan verilməyəcəksə, o zaman mübarizə üsulları dəyişə bilər.



**Hikmət Babaoğlu,**
Qərbi Azərbaycan İcmasının
sədr müavini

Yəni artıq icma təşkilatlanması institusional təşkilatlanma ilə əvəz oluna bilər. Bu da qərbi azərbaycanlıların öz torpaqlarına qayıtması üçün yeni imkanlar yaradar, yeni fəaliyyət metodları müəyyənləşdirilə bilər. İcmanın yaydığı bəyanatda “mühacirət hökuməti”nin yaradılması ilə bağlı komissiyanın formalaşdırılması tələbi bundan ibarətdir. Əgər İcma kimi hüquqlarımız tanınmırsa, bizim Ermənistan konstitusiyasını qəbul edərək sülh yolu ilə Ermənistana - tarixi torpaqlarımıza qayıtmağımız qəbul edilmirsə, o zaman mübarizənin başqa yolları da var və istifadə olunmalıdır. Təbii ki, indiki vəziyyətdə sülh yolu ilə Ermənistan Konstitusiyasının bizə verdiyi təhlükəsizlik təminatı ilə qayıtmaq istəyirik. Bu baş verməyəcəksə, Qərbi Azərbaycan İcması məcburdur ki, bunu başqa yollarla etsin və özünün qayıdışla bağlı təhlükəsizlik tədbirlərini də özü həyata keçirsin. Ermənistan bu iki variantdan birinə hazır olmalıdır.

> *“ Ermənilərin Qarabağa qayıtması məsələsini ermənilərin özləri də real hesab etmirlər*

> *Qərbi Azərbaycan Mühacirət Hökumətinin yaradılması, yeni şərtlər və onların yaratdıqları yeni perspektivlərlə bağlı olacaqdır*

***- Özünü “mühacirətdə olan hökumət” kimi qələmə verən qondarma rejimin Ermənistanda yaradılan “repatriasiya komissiyası” nəyə xidmət edir və Azərbaycan hansı adekvat adımlar atmalıdır?***

- O xalqın mühacirət hökumət yaratmaq haqqı var ki, doğrudan da öz tarixi torpaqlarından etnik təmizləmə, deportasiyaya məruz qalmış olsun və məcburi köç etsin. Ermənistan azərbaycanlıları son 100 ildə bunu dörd dəfə yaşayıb. 1905-1907,1918-20, 1948-1953, 1987-91-ci illərdə. Bu, Çar Rusiyası, Sovet Rusiyası və müstəqillik dövrlərində baş versə də, mahiyyət və nəticə etibarı ilə məzmun eynidir. Qərbi azərbaycanlılar öz tarixi torpaqlarından qovulduqları üçün məhz onların “mühacirət hökuməti” yaratmağa haqqı, hüququ var. Ermənilərin isə belə bir hüququ yoxdur. Çünki Qərbi azərbaycanlıların Ermənistan hakimiyyətindən istədiklərini, yəni Ermənistan vətəndaşı olaraq təhlükəsizlik təminatı ilə Ermənistanda yaşamaq istəyini Azərbaycan hökuməti Qarabağda yaşayan ermənilərə təklif etmişdi. Amma ermənilər özləri bundan imtina elədi.

Qarabağda yaşayan ermənilərin inteqrasiyası ilə bağlı Azərbaycan dövlətinin xüsusi bir layihəsi, proqramı da vardı. Bu istiqamətdə ermənilərlə Yevlaxda danışıqlar da aparıldı. Ermənilər bütün bunlardan imtina etdi. Qərbi azərbaycanlılar isə istəyirlər ki, Ermənistan belə bir komissiya yaratsın və icma ilə görüşərək onların təhlükəsiz şəraitdə öz torpaqlarına qayıtmasını təmin etsin. Separatçıların bu iki məsələni eyniləşdirməsi əslində regionda separatizmin alovlanmasına xidmət edir. İndi 1990-cı illərin əvvəlləri deyil, etnik və regional separatizmin baş tutması üçün ermənilərin əlində münbit şərait yoxdur. Xüsusən Azərbaycan ərazisində və ondan kənarda formalaşdırılan hansısa təşkilatlarla nə Ermənistan, nə də havadarları heç nəyə nail ola bilməzlər. Separatizmə qarşı mübarizədə Azərbaycanın çox yaxşı təcrübəsi var. Azərbaycan bu təcrübədən istənilən vaxt istifadə edə bilər. İstər ölkə daxilində, istərsə də kənarda Azərbaycanın təhlükəsizliyinə təhdid yaranarsa çox uğurlu antiterror tədbirləri keçirə bilər.

***- Erməniləri Qarabağa qaytarmaq istəyən Ermənistan və havadarları Qərbi Zəngəzurdan zorla qovulan azərbaycanlı əhali barədə hansı qərarı verməlidir?***

- Ermənilərin Qarabağa qayıtması məsələsini ermənilərin özləri də real hesab etmirlər. Elə bir neçə gün bundan öncə Ermənistanın baş naziri yerli mətbuata müsahibə verən zaman da bunu real hesab etmədi. Paşinyan qeyd elədi ki, son üç ayda 23 mindən çox Qarabağ ermənisi Ermənistanı birdəfəlik tərk edib. Nəzərə alsaq ki, artıq 1 ildir sonuncu terrorçu və separatçılar Azərbaycan ərazisini tərk ediblər, ona görə də nə qədər erməninin qayıda biləcəyi də real görünmür, bunun üçün real əsaslar yoxdur. Paşinyan hökuməti və Ermənistandakı bəzi radikal qüvvələr sülhə mane olmaq üçün bu məsələləri manipulyasiya edirlər.

***- Qərbi Azərbaycan Mühacirət Hökumətinin yaradılmasının vaxtı yetişibmi?***

- Qərbi Azərbaycan Mühacirət Hökumətinin yaradılması, yeni şərtlər və onların yaratdıqları yeni perspektivlərlə bağlı olacaqdır. İlkin mərhələdə Qərbi Azərbaycan İcmasının qarşısında belə bir vəzifə dayanmırdı. Biz 1987-1991-ci illərə qədər vətəndaşı olduğumuz Ermənistan respublikasına bərabərhüquqlu vətəndaş kimi qaytmaq istəyirdik. Yəni hər hansı bir hökumətin qurulmasından söhbət getmirdi. İndi ki, ermənilər bu cür qayıdışı qəbul etmir, o zaman Qərbi Azərbaycan Mühacirət Hökumətinin yaradılması perespektivdə daha ciddi vəziyyət ala bilər.

*✍ Tahirə Qafarlı*

# Tehran Moskvaya qarşı




◂ əvvəli 1-ci səhifədə

“Biz İran tərəfinin Zəngəzur dəhlizi ilə bağlı narahatlığını gördük və siz aydınlıq gətirmək üçün Tehranla əlaqə saxlamalısınız. Lakin Moskvanın bu məsələdə mövqeyi qətidir. Biz ondan çıxış edirik ki, həll Ermənistan, Azərbaycan və regiondakı qonşular üçün məqbul olmalıdır”.

**Agentliyin məlumatına əsasən bu açıqlamalarla bağlı İranın Rusiyadakı səfiri də Rusiya Xarici İşlər Nazirliyinin son mövqeyinə İranın etirazını bildirib.**

”Ümumiyyətlə, Rusiya hakimiyyətinə bir neçə məqamı xatırlatmaq lazımdır:

Birincisi, Rusiya Xarici İşlər Nazirliyi İranın gözləntilərinə zidd açıqlamalar verib. İranın yüksək rütbəli rəsmiləri İran İslam Respublikasının Naxçıvanı Azərbaycanla birləşdirən Zəngəzur və s. kimi istənilən növ dəhlizin əleyhinə olduğu, İranın aydın mövqeyi barədə bir çox hallarda rusları yaxşı məlumatlandırılıblar; Buna görə də bu mövqe heyrətamizdir!

İkincisi, Moskvanın hakimiyyət dairələri çox gözəl başa düşürlər ki, İran İslam Respublikası regionda, xüsusən də Cənubi Qafqazda baş verən ən xırda hadisələrlə bağlı aydın mövqeyə malik müstəqil bir ölkə kimi həmişə Amerikaya, Qərbə və bütün bunlara qarşı çıxır.

Üçüncüsü, İran İran İslam Respublikası ölkəsinin heç bir yerində sərhəd və ya təhlükəsizlik sərhədlərində hər hansı dəyişikliyi qəbul etmir.

Dördüncüsü, heç bir qaydada Cənubi Qafqaz ölkələrinin heç birinin təhlükəsizliyi və geosiyasi mövqeyinin digər dövlətlərdən üstünlüyü yoxdur; Bəs niyə bizim rus dostlarımız Ermənistanla problemlərini həll etmək üçün Zəngəzur dəhlizindən istifadə etməli olduqlarını düşünürlər?

Beşincisi, Moskva Ukrayna ilə müharibə vəziyyətində olanda amerikalılar NATO-nun dərisinə bürünmüş ilan kimi Cənubi Qafqaza yol açmaq istəyirdilər. Amma İran İslam Respublikası NATO və ABŞ qarşısında təkbaşına dayanmaq üçün mübarizə apardığı üçün ABŞ Prezidenti Co Baydenin administrasiyası İranı Zəngəzur dəhlizinin açılmasına yeganə maneənin bu olduğunu bildirib.

Rusiya ona da diqqət yetirməlidir ki, Zəngzor dəhlizinin eyni məsələsində, bu ölkənin özü son iki ildə Ukrayna məsələsi ilə məşğul olarkən, təkbaşına İran və xüsusən də Ali Rəhbərin şəxsi olub. bu məsələdə öz mənfəətini güdən partiyaların, xüsusən də qərblilərin həddindən artıq hərəkətlərinə qarşı çıxdı və onların pozmağa və müdaxilə etməsinə imkan vermədi. Altıncısı, iki ölkənin hakimiyyət orqanları strateji əlaqələrə girməyə hazırlaşır və bu, İran İslam Respublikasının hansısa strateji əlaqələr qurmaq istəyindən xəbər verir. Vladimir Putinin İran İslam Respublikasının yüksək rütbəli məmurları ilə çox mühüm və açıq-aşkar razılaşmalarını və iki ölkənin strateji əlaqələrin möhkəmləndirilməsinə diqqət yetirməsini nəzərə alsaq, Rusiya Xarici İşlər Nazirliyinin bu mövqeyi təəccüb doğurur! Belə görünür ki, “strateji münasibətlər”in praktiki mənası Rusiya Xarici İşlər Nazirliyi üçün yenidən müəyyən edilməlidir.

Yada salaq ki, Zəngəzur dəhlizinin açılması İranın Avropaya gedən qapılarından birinin bağlanması və İran İslam Respublikasının qonşularının sayının 15-dən 14-ə enməsi deməkdir. İran və Rusiyanın can atdığı “strateji əlaqələr” konsepsiyasına görə, bu cür taktiki addımlar strateji münasibətlərin əsaslarına ziddir”. Əslində, Tasnim agentliyinin bu təhlilini və Moskvaya ünvanladığı mesajları təsadüfən vermədik. Zəngəzur dəhlizinin açılmasında başlıca maneənin haradan qaynaqlandığı, Tehranın ambisiyaları ilə bağlı tam təsəvvür formalaşsın deyə bu detallara varmağı zəruri hesab etdik.

**Yeri gəlmişkən, İranın Rusiyaya Zəngəzur dəhlizi demarşından sonra Ermənistan baş naziri Nikol Paşinyan da Moskvanı bu məsələdə hədəf alıb. Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla kommunikasiyaların açılmasında Rusiyanın vasitəçiliyini qeyri-mümkün adlandırıb.**

“Siz necə təsəvvür edirsiniz ki, məsələn, regional kommunikasiyaların açılması məsələsində Ermənistanı təxribat törətməkdə günahlandıran bir ölkə vasitəçi kimi çıxış edəcək? Belə bir bəyanatla çıxış edən institut özünü bütün mümkün vasitəçiliklərdən kənarda qoyur. Harada görmüsünüz ki, vasitəçi əsassız ittiham irəli sürsün, sonra da bir yerdə oturub bu mövzunu onunla müzakirə edəsən?”, - baş nazir deyib.

**Ermənistan hökumət başçısı onu da bildirib ki, Ermənistan 2020-ci ilin noyabrında onunla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putinin imzaladığı üçtərəfli birgə bəyanatdan geri çəkilmək niyyətində deyil.**

Göründüyü kimi, Zəngəzur dəhlizi hələ bir çoxlarının rahat yuxusuna haram qatacaq. Təbii ki, bu prosesdə rəsmi Bakı özünün əmin addımları ilə hədəfinə doğru irəliləməkdədir. Bu, istər siyasi, istərsə də diplomatik və iqtisadi sahədə bütün vasitələri və imkanları işə salmaqla milli maraqlarımıza xidmət edəcək bu layihləyə qarşı çıxanların tədricən zərərsizləşdirilməsi anlamına gəlir ki, İran da istisna deyil.

*✍ Ləman Əliyeva*

# Fransadan qarayaxma kampaniyasını dayandırmağı tələb edirik

**Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirərək Azərbaycana dair açıqladığı sərt səyahət xəbərdarlığını qətiyyətlə pisləyirik. Fransa tərəfindən verilmiş bu cür əsassız, qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir.**



Bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadənin məsələyə dair şərhində yer alıb.

Bildirilib ki, Fransa vətəndaşlarının əsassız olaraq saxlanıldığı və həbs edildiyi barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunmasıdır.

Ölkəmizdə indiyə qədər yalnız Fransa Respublikasının vətəndaşı Martin Rian ötən il dekabrın 4-də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Bundan əlavə, digər Fransa vətəndaşı Klerk Teo Hüqonun Bakı metrosunda törətdiyi əmələ görə saxlanıldığı məlumdur.

Bunun əksinə, rəsmi Paris tərəfindən Azərbaycan jurnalistlərinin Fransaya, hətta digər Şengen ölkəsi ərazilərinə səyahətləri zamanı tətbiq etdiyi maneələr Fransanın təbliğ etdiyi “insan hüquqlarına” tamamilə zidd olduğu aydındır.

“Azərbaycanda məhkəmə hakimiyyətinə və insan hüquqlarına dair iddia səsləndirən, dünyaya “demokratiya dərsi” keçməyə çalışan Fransanın beynəlxalq hüquqi pozuntuları, neokolonial siyasəti, irqçilik, diskriminasiya, islamofobiya, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyəti hər kəsə məlumdur. Buna görə də Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olardı.

Biz bir daha Fransa tərəfindən Azərbaycana qarşı qarayaxma kampaniyasını dayandırmağı tələb edirik”, - deyə açıqlamada qeyd olunub.

# Kanadada məhkəmələr, sanki müttəhimlərə vəkillik edir...



**Ənvər Əliyev,**
Milli Elmlər Akademiyasının
Coğrafiya İnstitutunun şöbə müdiri

***Bu yaxınlarda Kanadanın Toronto şəhərində birayılıq səfərdə olmuş Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun şöbə müdiri Ənvər Əliyevla hafta.az üçün söhbətimizdə həmin ölkəni tanınmış alimə sevdirən əsas məqamlar və üstünlüklər, Kanada sakinlərinin qonaqlara, miqrantlara münasibəti, kanadalıların ekologiyaya, təbiətə, o cümlədən su ehtiyatlarına qayğısı, ölkədə polis-vətəndaş, məhkəmə-vətəndaş münasibətlərinin necə qurulması, Kanadada sosial durum, ərzaq qiymətləri və s. haqda danışdı.***

## Müsahib

***- Ənvər bəy, Kanadaya gəldiyiniz ilk dəqiqələrdə diqqətinizi cəlb edən əsas məqamlar hansılar oldu?***

- Təyyarəmiz Kanadaya endiyi ilk dəqiqələrdə bizi şimal enliyinin meşə zonalarına xas olan gözəl bir yağışlı hava qarşıladı... Hava limanında diqqətimi cəlb edən məqamlardan biri orada sadə texniki, təmizlik işlərinə baxan əməkdaşların əsasən Hindistan, Pakistan, Əfqanıstan kimi Böyük Britaniyanın keçmiş müstəmləkə və ya protektoratlarından gəlmiş ingilis dilini yaxşı bilən insanların olması oldu. Yol yoldaşım olan və bu ölkəyə mütəmadi səfərlər edən iki türk də təsdiq etdi ki, Kanadada belə işləri görənlərin çox böyük əksəriyyəti gəlmələrdir. Sonrakı müşahidələrimdə də mən bunun həqiqət olduğunu öyrəndim. Kanadada yerli, aborigen anqlo-saks əhalinin nümayəndələri isə əsasən idarəçilik vəzifələrində, ictimai-siyasi, elmi işlərdə və s. çalışırlar...

***- Bu ölkənin əsas hansı üstünlükləri bir coğrafiyaşünas, seysmoloq olaraq sizin onu sevmənizə təkan verdi?***

- Mən səfərdə olduğum Toronto şəhəri Şimali Amerikanın meşə zonasının ən gözəl şəhərlərindən biridir. 7 milyona yaxın əhalisi olan bu şəhərin elə ilk müşahidələrdən qaydaqanunlarla idarə olunduğu hiss edilir. Sakinlərin öz Vətənlərinə, şəhərlərinə həddindən artıq sevgi, diqqət, qayğı ilə yanaşmasını da duydum. Şəhərkənarı evlər hamısı meşənin içərisindədir. Oradakı dəbdəbəli villalar belə, Azərbaycandakı kimi yüksək hasarlarla, barmaqlıqlarla əhatə olunmur, yoldan birbaşa evin həyətinə daxil olursan. Söhbətlərdən belə qənaətə gəldim ki, bəzən ev sahibləri aylarla xarici səfərlərdə-filanda olsa da, kiminsə evlərə girməsi, yəni oğurluq, talançılıq hallarına rast gəlinmir. Nadir hallarda belə olaylar baş versə də, onların yerli yox, gəlmə adamlar tərəfindən törədildiyi qeyd edilir. Yerli sakinlər hətta yerdə bir kağız qırıntısı görəndə də deyirlər ki, bu zibili mütləq gəlmələr atıb...

***- Kanada sakinlərinin qonaqlara, miqrantlara münasibəti necədir?***

- Kanadalıların qonaqlara münasibətləri çox yaxşıdır. Bəhs etdiyimiz aborigen, yerli əhali daim gülərüzlü görünür, heç vaxt kənardan baxanlara əsəbi, qəmli-kədərli, bədbin, pessimist təsir bağışlamırlar. İnsanlar bir-birini ən cüzi formada belə, incitməməyə çalışırlar. Hətta tanışlardan biri mənə danışdı ki, çalışdığım müəssisədə rəhbəri olduğum əməkdaşlardan birinə bir az kəskin formada onun öz işində ciddi nöqsanlara yol verməsi haqda yazmışdım. Bundan xəbər tutan müdiriyyət məni çağırıb nəzakətlə dedi ki, əməkdaşlarla, insanlarla belə kəskin danışmaq olmaz. Nəticədə mən həmin əməkdaşdan üzr istəməli oldum. Ümumiyyətlə, Kanadada bu cür yanaşmalar insanın şəxsiyyətinə toxunmaq kimi dəyərləndirilir... Orada hətta yaxından tanış olmayan şəxslərin bilə-bilə bir-birlərinə toxunması da kobudluq sayılır. Bir dəfə mağazalardan birinin nəzarətçisi mənə yaxşılıq etmişdi, ona təşəkkür etmək üçün əlini sıxmaq istədim, yanımdakı soydaşlarım dedi ki, ehtiyac deyil. Bəzən belə hərəkətə görə adam kəskin cavab verirlər...

Şəhərdə heç bir yerdə növbələrə, basabasa-filana, tıxaclara da rast gəlmədim...

Onu da deyim ki, Torontoda avtomobilsiz yaşamaq çox çətindir. Hər 100 nəfərə 70 maşın düşür. Avtomobillərdə quraşdırılmış elektron qurğular vasitəsilə şəhər barədə istənilən suala cavab tapmaq olur: "Harada benzinin qiyməti neçəyədir? Harada hansı ərzaqlar satılır?" Və s. Onun da şahidi oldum ki, kanadalılar istirahət günlərində əyləncələrə çox üstünlük verirlər. Şəhərin müəyyən olunmuş hissələrində, həm mərkəzdə, həm də kənarlarda pulsuz konsertlər verilir. Mən də maraq üçün bir neçə konsertlərində oldum. Normal musiqilər, mahnılar səslənidirilir, insanlar rəqs edir, deyib-gülürlər. Bir sözlə, asudə vaxtlarını normal və mənalı keçirirlər...

***- Sosial şəbəkələrdəki şərhlərinizdən görünür ki, deyəsən, sizi daha çox kanadalıların ekologiyaya, təbiətə, o cümlədən su ehtiyatlarına qayğısı cəlb edib?***

- Bəli, Kanada içməli su ehtiyatlarına görə dünyanın öncül ölkəsidir. Bir ay müddətində mən onun ən böyük şəhəri olan Torontonun xeyli hissəsini gəzdim: boş yerə bir damcı da olsun su axıdıldığını görmədim... Bir də kanadalıların şəhərkənarı sahələrdə gəzintilərə, pikniklərə çıxarkən təbiətə qarşı davranışları diqqətimi cəlb etdi. Şəhərin müvafiq qurumları, bələdiyyə və s. isə gəzintiyə çıxmış insanlara çatışmayan ləvazimatları çatdırmaqda dəstək olurlar. Xüsusən gəzintiyə gələn hər bir kəsi yediyi qidaların qalıqlarını-filanı toplamaq üçün zibil torbaları ilə təmin edirlər. Və təbii ki, insanlar da gəzdikləri, qoyunda istirahət etdikləri meşələri, çəmənləri qətiyyən zibilləmirlər... Ölkədə heyvanat aləmi də çox zəngindir. Elə Toronto şəhərinin öz içərisində bu, hiss olunurdu. Təsəvvür edin, şəhərin ortasındakı küçələrdə, parklarda ağacların üzərində dələlər oynaşır. Hətta mən şəhər tezdən oyananda meşədə tülkülərə, marallara və s. heyvanlara rast gəlirdim. Amma onu da öyrəndim ki, Kanadada heyvanları toxunmaq, onları yemləmək qadağandır. Onlar öz problemlərini özləri həll etməlidirlər...

***- Kanadada polis-vətəndaş, polis-əcnəbi münasibətlərini necə gördünüz?***

- Kanadada olduğum bir ay müddətində, demək olar ki, qarşıma polis çıxmadı. Ölkədə ümumiyyətlə, polis yoxdur. İnsanlar, sakinlər, vətəndaşlar şüurlu şəkildə özləri asayişə, saktiliyə, əmin-amanlığa nəzarət edirlər... Yeri gəlmişkən, məhkəmələrin də vətəndaşlara münasibəti ilə maraqlandım. Məlum oldu ki, Kanadada məhkəmələr müəyyən inzibati xəta, cinayət törətmiş insanları dərhal məhkum etməyə yox, onlara özlərini qorumaq üçün mümkün qədər şərait yaratmağa, sanki ittiham olunanlara, müttəhimlərə vəkillik etməyə çalışırlar. Məsələn, taksi sürücülüyü ilə məşğul olan miqrantlardan biri danışır ki, bir dəfə qəza işi ilə bağlı məhkəmənin ilk baxışdan mənə 400 dollar cərimə kəsəcəyi gözlənilirdi. Lakin onlar məsələni ciddi araşdırdıqdan qəza vaxtı havanın həddindən artıq yağışlı-küləkli və s. olmasını nəzərə alaraq məni cəmi 40 dollar cərimə etdilər... Ümumiyyətlə, hiss olunur ki, Kanada dövlətinin yeganə qayəsi vətəndaşına necə kömək göstərməyə, onun işinə necə yarımağa, bir sözlə, onu necə xoşbəxt etməyə yönəlib...

***- Sosial durum, ərzaq qiymətləri necədir?***

- Ərzaq qiymətləri Azərbaycana nisbətən baha olsa da, əlbəttə, əmək haqları bizdəkindən dəfələrlə yüksəkdir. Kanadada orta aylıq əmək haqqı 5 081 dollardır. Eyni zamanda bütün ərzaqlar, meyvə-tərəvəz çox keyfiyyətlidir, ekoloji təmizliyinə zəmanət yüksək dərəcədədir. Torontoda ABŞ-dən gətirilən qarpızların dadı qeyri-adidir, sanki dondurma yeyirsən... Onu da hiss etdim ki, insanlar öz hökumətlərinə, dövlətlərinə yetərincə etibar edirlər. Mən bir dəfə sakinlərdən biri ilə söhbət zamanı maraqlandım ki, şəhərdə hər yerdə parklarda, meşələrdə internet işləyir, bunun səhhətinizə zərər vurmasından ehtiyat etmirsiz ki. O, cavab verdi ki, biz öz hökumət qurumlarımıza, o cümlədən internet xətlərinin çoxluğunun sağlamlığımıza zərər vurmadığını deyən Səhiyyə Naziriyimizə inanırıq, etibar edirik...

> Orada hətta yaxından tanış olmayan şəxslərin bilə-bilə bir-birlərinə toxunması da kobudluq sayılır

Onun da şahidi oldum, Kanadada dövlət, hökumət qurumları nəinki vətəndaşların, hətta ölkələrində təhsil almağa, işləməyə gəlmiş əcnəbilərin biliyinə, savadına, istedadına yüksək səviyyədə diqqət göstərir. Bunu artıq neçə ildir orada yaşayan, işləyən oğlumun timsalında da təsdiqini gördüm... Oğlumun ixtisası Azərbaycanda çox az insana tanış olan "aktuari" adlandırılan bir elm üzrədir. Dövlətin müxtəlif sahələr( kənd təsərrüfatı, sənaye, pensiyalar və s.) üzrə strateji planlaşdırmasıyla məşğul olan ixtisas növüdür.

O, Britaniyanın Vaterloo universitetini magistraturasını onlayn olaraq həmin ixtisas üzrə bitirib və sonra Kanadada işləməyə başlayıb və ondan orada qalıb işləməyi xahiş ediblər. Deməli, oğlumun elmi müdafiə işi müxtəlif təbii fəlakətlər zamanı Kanadanın kənd təsərrüfatına dəyən zərərlərin hesablanması və müxtəlif təsərrüfat sahələrinin gəliri-çıxarının və s. buna uyğun hesablanması kimi bir mövzu ilə bağlı olub. Müdafiədə iştirak edən kənd təsərrüfatı nazirinin müavini oğlumun işini bəyənib və təkid edib ki, o məhz Kanadada qalıb işləsin. Onunla bərabər elmi işlərini müdafiə edənlərdən yalnız 3-ü Kanada da saxlanılıb, qalanları ABŞ-ya göndərilib...

*✍ Sultan Laçın*

---

**Son günlər valyuta bazarında dollar satışına məhdudiyyətlərin tətbiqi ilə bağlı xəbərlər yayılıb. Ehtimal edilir ki, yaxın vaxtlarda dolların bahalaşması gözlənildiyindən bazarda qıtlıq yaranıb. Hətta bəzi mütəxəssislər COP29-dan öncə ölkədə devalvasiya olacağını, dolların manata nisbətdə məzənnəsinin ciddi şəkildə artacağını bildirirlər. Bəs, görəsən, bu ajiotajın yaranmasına səbəb nədir? Dolların bahalaşma ehtimalı varmı?**

**neftin qiyməti büdcədə müəyyən edilmiş köçürmə normasından yüksək olacaq, tədiyyə balansı müsbət saldosunu qoruyacaq, neftin maya dəyəri isə büdcədə müəyyən edilmiş köçürmə normasını keçəcək və buna görə də devalvasiya üçün heç bir obyektiv səbəb yoxdur:** "Hökumət manatı dollara nisbətdə ucuzlaşdırmağa meylli deyil. Azərbaycan valyutasının məzənnəsi inzibati qaydada tənzimlənir, çünki valyuta gəlirləri neft və qaz ixracı seqmentində cəmləşir".

Məsələ ilə bağlı Mərkəzi Bank (MB) açıqlama ilə çıxış edərək insanlar arasında ajiotaja səbəb olan bu cür məlumatların heç cür əsasının olmadığını, bank mübadilə məntəqələrində valyuta alışı və satışının əvvəlki kimi öz ritmi ilə davam etdiyini bildirib.

■ **Mərkəzi Bankın maliyyə bazarlarında əməliyyatlar departamentinin direktoru Eldar Seydiyev mediaya müsahibəsində qeyd edib ki,**

# Manat ucuzlaşmayacaq



■ **Məsələ ilə bağlı iqtisadçı-ekspert Rəşad Həsənov deyib ki, Azərbaycanda maliyyə bazarında devalvasiyanı şərtləndirən təzyiq yoxdur:**

"Hazırkı iqtisadi mühit, ölkənin idxal-ixrac əməliyyatlarının, tədiyyə balansının strukturunun göstəricilərinin, monetar siyasətin elementlərinin, fiskal yanaşmaların və sosial aspektlərin, xüsusi ilə də risklərin təhlili nəticəsində gəlinən qənaət ondan ibarətdir ki, bu gün Azərbaycanda maliyyə bazarında devalvasiyanı şərtləndirən təzyiq yoxdur. Bu gün maliyyə bazarında təklif qıtlığı yaranarsa, bu, qısamüddətli texniki səbəblərdən baş verə bilər. Uzun müddətli dövr üçün bu qıtlığı şərtləndirən hər hansısa bir faktor yoxdur. Ölkəyə daxil olan valyuta ölkədən çıxan valyuta ilə müqayisədə xeyli çoxdur. Bu şəraitdə devalvasiyanın iqtisadi və monetar aspektləri görünmür. Bu istiqamətdə təzyiqlər yoxdur. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanda manatın məzənnəsi diktə ilə formalaşır. Əgər hansısa fərqli arqumentlərlə, əsaslandırmaqla hökumət qərar qəbul edərsə, bu da mümkündür. Yəni göstəricinin diktə qaydasında dəyişməsi ola bilər. Bu barədə müşahidələrimiz göstərir ki, hökumətdə hər hansısa qənaət yoxdur. Nə zamansa belə bir qərar qəbuletmə imkanları var. Faktiki olaraq heç bir real səbəb Azərbaycanda devalvasiyanı şərtləndirmir. Devalvasiyanın yaradacağı inflyasiya tədbirləri, sosial yük, vətəndaş və biznes üçün yaradacağı əlavə problemləri nəzərə almaq şərti ilə hökumət bu istiqamətdə hələlik qərar qəbul etməyəcək. Ən azından 2024-cü ildə devalvasiya gözlənilmir".

> Azərbaycanda maliyyə bazarında devalvasiyanı şərtləndirən təzyiq yoxdur
>
> Hökumət manatı dollara nisbətdə ucuzlaşdırmağa meylli deyil
>
> Dollar satışında heç bir problem yoxdur və dollara olan tələb tam təmin edilir

Onun fikrincə, bankların dollar satışını məhdudlaşdırmasının müxtəlif səbəbləri ola bilər: "Dəfələrlə buna bənzər hallar baş verib. 2017-ci ildən bəri faktiki olaraq ölkədə sabit məzənnədir. Ola bilsin, hərraclar arasındakı vaxt hansısa səbəbdən uzanır, banklar proqnozlaşdırmaqda çətinlik çəkirlər və lazım olan qədər hərracdan valyuta almırlar, nəticədə belə bir qıtlıqla üzləşirlər. Azərbaycan bazarı çox kiçikdir. İri bir şirkətin bazara daxil olub, valyuta alıb hansısa borc öhdəliyini yerinə yetirməsi belə ciddi valyuta qıtlığı yarada bilər".

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov isə bildirib ki, beynəlxalq bazarlarda valyuta hərraclarında dollar satışında heç bir problem yoxdur və dollara olan tələb tam təmin edilir.** Dövlət Neft Fondu (DNF) tərəfindən qrafikə uyğun olaraq xarici valyutanın satışı üzrə hərracların keçirilməsi davam edir. 2024-cü ilin ötən dövründə keçirilmiş 61 hərracda DNF tərəfindən 4,7 milyard dollar satılıb. Əlavə olaraq, 2024-cü ilin ötən dövründə banklararası bazarın həcmi 614 milyon dollar təşkil edib. Eyni zamanda, ötən dövr ərzində Mərkəzi Bank tərəfindən təşkil edilən bütün valyuta hərraclarında tələb təmin edilib. Xarici valyutaya tələbin çoxalmasına gəlincə, E.Seyidov mövcud vəziyyəti qeyri-neft-qaz idxalının artması ilə əlaqələndirib: "Valyutaya tələbin artmasına başlıca səbəb qeyri-neft-qaz idxalının artmasıdır ki, bu da investisiya aktivliyinin yüksəlməsi və dövlət xərclərinin genişlənməsi fonunda baş verir. Bu ilin ilk 7 ayında daxili mənbələrdən iqtisadiyyata yönəldilən investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 10,7 faiz artıb. Bu dövrdə dövlət büdcəsinin xərcləri 10,4 faiz artıb. O cümlədən dövlətin birbaşa valyuta komponentli xərcləri (xarici borc və s.) ötən ilin eyni dövrü ilə müqayisədə artıb. Bütün bunlar idxal üzrə qabaqcadan ödənişlərin artması ilə müşayiət olunub. Eyni zamanda cari ildə hökumət tərəfindən emissiya edilmiş avrobondun geri alışının həyata keçirilməsi (0,9 milyard ABŞ dolları), ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən ticarət kreditləri üzrə öhdəliklərin azaldılması (0,8 milyard ABŞ dolları) valyutaya tələbin 2023-cü illə müqayisədə artmasına gətirib çıxarıb. Qeyd edək ki, tədiyə balansının kapitalın hərəkəti hesabında baş verən bu struktur dəyişiklikləri, o cümlədən birbaşa xarici dövlət borcunun əhəmiyyətli azalması perspektivdə valyutaya tələbi azaldacaq amillərdir. Ümumilikdə bildiririk ki, valyuta bazarı profisitli tədiyə balansı şəraitində fəaliyyət göstərir. Tədiyə balansının cari əməliyyatlar hesabının ümumi daxili məhsula nisbəti I rübdə 10,1 faiz olub. Ticarət balansında 2024-cü ilin ilk 7 ayında 5,3 milyard ABŞ dolları məbləğində profisit formalaşıb. Proqnozlara əsasən 2024-cü ilin yekunu üzrə də cari əməliyyatlar hesabının profisitli olaraq qalacağı gözlənilir".

*✍ Sevinc*

---



■ **"Azərbaycan Dəmir Yolları" QSC dəmiryol stansiya və vağzallarına şəxsi avtomobillə gələn sərnişinlərə müraciət edib.**

ADY-dən verilən məlumata görə, Bakı-Pirşağı-Sumqayıt xətti boyunca yerləşən stansiya və vağzallara aid avtodayanacaqlar sərnişinlərin istifadəsi üçün açıqdır.

Şəhər mobilliyinin dəstəklənməsi və sərnişinlərin rahatlığının təmin edilməsi üçün Keşlə, Bakıxanov, Zabrat 1, Zabrat 2, Məmmədli, Pirşağı və Novxanı dəmiryol dayanacaqlarından istifadə qatarların hərəkət saatları (06:00-00:00) ərzində ödənişsizdir. Məlumata görə, hər bir stansiya və vağzalda istifadə qaydaları və digər məlumatların yer aldığı lövhələr quraşdırılıb.



■ **2024-cü ilin ötən dövrü ərzində respublika üzrə 25 140 heyvan dişləməsi faktı qeydə alınıb. Bu barədə Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən məlumat verilib.**

Bildirilib ki, bunlardan 13 907 hadisə məlum heyvanlar, 11 233 hadisə naməlum heyvanlar tərəfindən olub. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin keçən dövrü ərzində heyvan dişləməsinə məruz qalanların sayı 430 nəfər azalıb (2023-cü ilin müvafiq dövründə müraciətlərin sayı 25 570 nəfər olub). Heyvan dişləməsinə məruz qalanların quduzluğa qarşı antirabik vaksinlə əhatə olunması təmin edilib. Hazırda tibb müəssisələrində kifayət qədər antirabik vaksin var.



■ **Moskva Ukraynanın Amerikanın uzaqmənzilli silahları ilə Rusiya ərazisinin dərinliklərinə zərbə endirəcəyini nəzərə alır. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.**

"Elə indi də Rusiya ərazisi davamlı olaraq Amerika istehsalı olan silahlarla hücuma məruz qalır", - deyə Kreml rəsmisi vurğulayıb. Rusiya hesab edir ki, Ukraynaya silah tədarükü nizamlanmaya mane olur və NATO ölkələrini münaqişəyə birbaşa cəlb edir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov qeyd edib ki, Ukrayna üçün silah olan istənilən yük Rusiya üçün qanuni hədəfə çevriləcək. Onun sözlərinə görə, ABŞ və NATO münaqişədə bilavasitə iştirak edir, o cümlədən təkcə silah tədarükü ilə deyil, həm də Böyük Britaniya, Almaniya, İtaliya və digər ölkələrdə kadrların hazırlanması ilə məşğuldur.



■ **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyi "İnsan Kapitalının İdarə Edilməsi üzrə Mükəmməllik Mükafatı 2024" (Human Capital Management Excellence Awards 2024) beynəlxalq müsabiqəsinin qalibi olub. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, DOST Agentliyi "Ən yaxşı sosial təsir" kateqoriyasında İnsan Kapitalının İdarə Edilməsi üzrə Mükəmməllik Mükafatına layiq görülüb. "Brandon Hall Group" tərəfindən təşkil olunan müsabiqəyə sosial müdafiə, məşğulluq, əlillik, əmək münasibətləri sahələrində DOST xidmətlərinin göstərilməsində, bu sahədə innovativ təşəbbüslərin reallaşdırılması və vətəndaş məmnunluğunun artırılmasında, eləcə də bərabərliyin və inklüzivliyin təmin olunmasında "Könüllü DOST" proqramının təcrübəsi təqdim olunub.



■ **İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi münasibətilə Moskvada keçiriləcək parad ərəfəsində MDB-nin qeyri-rəsmi sammiti planlaşdırılır.**

Bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. "Qələbə Günü ərəfəsində Moskvada MDB-nin qeyri-rəsmi sammiti və bir çox digər ikitərəfli təmaslar planlaşdırılır", - deyə Peskov qeyd edib. Kremlin sözçüsü qələbənin 80 illiyi şərəfinə keçiriləcək parada dost olmayan ölkələrin başçılarının Moskvaya dəvət olunmayacağını da söyləyib: "Biz qeyri-dost ölkələrin başçılarını dəvət etməyəcəyik. Dəvət olunanlar ilk növbədə MDB dövlətlərinin liderləri olacaq".




■ **2024-cü ilin yanvar-iyul aylarında Azərbaycanda banklara sürətli pulköçürmə sistemləri vasitəsilə 1 milyard 58.2 milyon manat vəsait daxil olub. Banklardan xaricə göndərilən vəsaitin həcmi isə 303 milyon manata bərabər olub.**

Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, ötən ilin yanvar-iyul aylarına nisbətən sürətli pul köçürmə sistemləri vasitəsilə banklara daxil olan vəsaitin həcmi 29.9% və ya 450.9 milyon manat, banklardan xaricə köçürmələr isə 17.6% və ya 64.6 milyon manat azalıb. Qeyd edək ki, 2023-cü ilin yanvar-iyul aylarında Azərbaycanda banklara sürətli pul köçürmə sistemləri vasitəsilə 1 milyard 509.1 milyon manat daxil olub. Banklardan xaricə göndərilən vəsaitin həcmi isə 367.6 milyon manat təşkil edib.

# Bakının tozlu havası

**_Bir neçə gündür ki, Bakı və Abşeron yarımadasında tozlu hava şəraiti müşahidə edilir. Mütəxəssislər bu cür havanın hələ bir neçə gün davam edəcəyini proqnozlaşdırırlar. Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasova bildirib ki, avtomatik meteoroloji stansiyalardan alınan məlumata görə, Bakıda və Abşeron yarımadasında, həmçinin Xəzər dənizi sahili boyu ərazilərdə müşahidə olunan tozlu hava şəraiti transsərhəd xarakterlidir: "Əvvəlcədən xəbər verildiyi kimi, sentyabrın 2-dən başlayaraq tozlu hava kütlələri cənub-şərq axınları vasitəsilə ölkə ərazisinə daxil olub._**

## Ekologiya



Tozlu hava şəraitinin meteoroloji vəziyyətdən asılı olaraq yaxın iki gün ərzində davam edəcəyi gözlənilir".

G.Abbasova qeyd edib ki, aparılan təhlillərə görə, il ərzində Mərkəzi Asiya səhralarında baş verən qum fırtınası cənubda Ərəbistan yarmadasında, şərqdə Türkmənistan səhrasında toz burulğanları yaradır və formalaşan bu toz kütlələri cənub və şərq istqamətli hava axınları vasitəsilə ölkəmizə keçir və əsasən Bakı şəhərində, Abşeron yarımadasında tozdumanının yaranmasına səbəb olur:

"Son illər iqlim dəyişmələrinin təsiri nəticəsində bu prosesin daha tez-tez təkrarlanması müşahidə edilir. Sinoptik şəraitə görə, hazırda ölkə ərazisində hava şəraitini antisiklon təyin edir və nəticədə hava isti və quraq keçir, cənub-şərq küləklərinin üstünlüyü qeydə alınır. Belə durğun hava şəraiti cənub-şərq axınları vasitəsilə ölkə ərazisinə daxil olan toz hissəciklərinin havada daha çox qalmasına şərait yaradır".

Xidmət rəsmisinin sözlərinə görə, ölçüsü 2,5 mikrondan kiçik toz hissəcikləri (PM2,5) havada asılmış vəziyyətdə qalaraq yuxarı tənəffüs orqanlarına təsir göstərdiyi üçün əhaliyə açıq havada az olmaları və yaxud qoruyucu maskalardan istifadə etmələri tövsiyə edilir.

■ **Mövzu ilə bağl professor Adil Qeybulla da vurğulayıb ki, tozun zərərli və ya zərərsiz olduğunu dəqiq bilmədiyimiz üçün ehtiyatı əldən verməməliyik:** "Tozlu hava külək vasitəsilə Bakı və Abşeron yarımadasına müxtəlif yerlərdən gəlir. Bu proses adətən Orta Asiya və şimal istiqamətində müşahidə olunur. Burada tozun mənşəyi, mahiyyəti, orqanizmənə dərəcədə zərərli olması, radioaktiv fonun olub-olmaması çox vacibdir. Çox yaxşı olar ki, insanlar belə havalarda maskadan istifadə etsinlər. Müşahidə etmişəm ki, insanlar maskadan istifadə etmək istəmirlər. Əsasən də, nəfəs yollarında problemləri olan, astma xəstəliyindən əziyyət çəkən, müxtəlif xroniki ağciyər xəstəlikləri, allergiyası olan xəstələr belə havalarda xüsusilə diqqətli olmalıdırlar".

A.Qeybulla bildirib ki, belə hava şəraiti əsasən bir neçə gün davam edir: "Adını qeyd etdiyim xəstəliklərin daşıyıcıları olan şəxslərdə simptomlar daha da fəallaşıb, özünü daha ağır və kəskin formalarda göstərə bilər. Tozlu hava əsasən uzun müddət davam etmir. Çünki Bakı küləklər şəhəridir və külək toz hissəciklərini dağıdıb, başqa istiqamətlərə aparır. İnsanlara tövsiyəm odur ki, bu tip halların baş verdiyi bir neçə günlük müddətdə maskadan istifadə etsinlər".

■ **Mövzu ilə bağlı ekoloq Ənvər Əliyev deyib ki, havada müşahidə olunan toz xırda qum hissəcikləridir: "Azərbaycan ərazisinə ümumilikdə 8 hava kütləsi daxil olur.** Toz hissəcikləri cənub-şərq və şərq istiqamətindən daxil olan hava kütlələri vasitəsilə gəlir. Səhradakı qum tufanları zamanı qum hissəcikləri atmosferin ən yüksək qatına qalxır. Nizamsız şəkildə olur, amma hava kütlələri vasitəsilə başqa ölkə ərazisinə daxil olur. Orta Asiyadan gələn hava axınını ilk qarşılayan Abşeron yarrımadası, Bakıdır. Ona görə də qum hissəcikləri havada müşahidə edilir".

Ə.Əliyev də qeyd edib ki, tozlu hava insan orqanizminə ziyandır:

"Əlbəttə, ürəkaçan durum deyil. Mənfi təsirləri çoxdir. Düşünə bilərik ki, nədir ziyanı, toz qatıdır, gəldi, külək sovurub aparacaq. Elə deyil. Tozlu hava ağciyərlərə də ziyandır, gözə də ziyandır. Bunlar çox xırda hissəciklərdir və ağızdan nəfəs borusu ilə ağ ciyərlərə də nüfuz edir, göz qişasına da daxil olur. Görmə qabiliyyətini əngəlləyir. Lakin önünü kəsmək də mümkün deyil, hava axınıdır. Mövsümi xarakterlidir və Bakıda tez-tez müşahidə olunur. İnsanlar özlərini qorumaq üçün belə havalarda mümkün qədər evdən çıxmamalıdırlar. Çalışmaq lazımdır ki, çirkli hava ilə təmas az olsun. Küçəyə çıxanda tibbi maskalardan istifadə etmək, eynək taxmaq məsləhətdir".

■ **Həkim terapevt Rasif Bağırov da tozlu havanın insan orqanizminə mənfi təsirləri olduğunu vurğulayaraq deyib ki, tozun üzərində müxtəlif mikroblar olur:** "Bu mikroblar hava ilə birlikdə insan orqanizminə daxil olur. Problemlər də ondan sonra başlanır. Tozlu hava tez-tez müşahidə olunduqda, ağciyərlərdə müəyyən xroniki abstruktiv xəstəliklərin əmələ gəlməsinə yol açır. Bəzi insanların genetik olaraq ağciyərləri zəif olur. Həmin insanlar üçün tozlu havada arıcıl olaraq olmaq xüsusilə təhlükəlidir". Həkim bildirib ki, toz ağciyərlərdən başqa gözün selikli qışasına düşərək problemlər yarada bilər. Bundan başqa dəridə də müxtəlif xəstəliklərin ortaya çııxmasına zəmin yaradır. Tozlu havalarda tibbi maska taxılması mütləqdir. Əgər maska koronavirusun qarşısını alırsa, onda tozla orqanizmə daxil olan digər virusların da qarşısını alır".

*"*

*Son illər iqlim dəyişmələrinin təsiri nəticəsində bu prosesin daha tez-tez təkrarlanması müşahidə edilir*

*Toz hissəcikləri cənub-şərq və şərq istiqamətindən daxil olan hava kütlələri vasitəsilə gəlir*

*Tozlu hava tez-tez müşahidə olunduqda, ağciyərlərdə müəyyən xroniki abstruktiv xəstəliklərin əmələ gəlməsinə yol açır*

✍ **_Sevinc_**



# Mişar daşını bahalaşdıran səbəblər

**_Azərbaycanda bəzi tikinti materiallarının qiyməti bahalaşıb. Bahalaşanların əksəriyyəti inşaatda ilkin istifadə edilən materiallar təşkil edir. Məsələn, son bir ayda mişar daşının satış qiyməti 45 qəpikdən 60 qəpiyə qədər bahalaşıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri Samir İdayətov da jurnalistlərə açıqlamasında mişar daşının pərakəndə satış qiymətinin artdığını təsdiqləyib. Onun sözlərinə görə, mişard daşının qiymətinin artmasına bir yox, bir neçə amil təsir edir:_**

## Tikinti



**Xalid Kərimli,**
iqtisadçı-ekspert

"Mişar daşının bahalaşması barədə yayılmış xəbər doğrudur, ancaq burada müəyyən təfsilata ehtiyac var. Çünki mişar daşının qiymətinin artmasına bir yox, bir neçə amil təsir edir. Əvvəla, hər yay mövsümündə tikinti materialları bazarında bu və yaxud buna bənzər hallar gündəmə gəlir. Bundan başqa, yük avtomobillərinin tutumuna texniki nəzarətin gücləndirilməsi, yanacaq qiymətləri, sərbəst ticarət amili mişar daşı qiymətlərinə təsir edə bilər".

Bəs, görəsən, mişar daşının bahalaşması evlərin qiymətinə necə təsir göstərəcək?

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, bahalaşmanın bir neçə səbəbi var: "Birincisi, yanacağın qiymətinin bahalaşması digər sektorlara da öz təsirini göstərir.**

Dizelin 25 faiz bahalaşması daşınma xərclərini artırıb. Bundan başqa, əvvəl avtomobillərlə normadan artıq yük daşımaq mümkün idi. İndi isə yollarda buna nəzarət edən ağıllı radarlar qurşadırılıb və bununla bağlı konkret tənzimləmə mövcuddur. Məsələn, əvvəl bir maşında bir dəfəyə 45-50 ton yük daşınırdısa, indi bu göstərici 25-30 tona bərabərdir. Göründüyü kimi, daşıma qabiliyyəti iki dəfə aşağı düşüb. Bu da o deməkdir ki, yükdaşımanın qiyməti iki dəfə artıb. Materialların xüsusiyyətindən asılı olaraq onların daşıma xərclərində də qiymət artımı 25-30 faiz təşkil edir. Qarabağda da quruculuq işləri aparılır, bu da daha çox məhsulun sərfi deməkdir. Bundan başqa, ölkəmizdə COP29 keçiriləcək və bu da tikinti bazarına təsirsiz ötüşməyib".

İqtisadçı daş kariyerləri ilə bağlı ekoloji standartlara ciddi nəzarət olunmasının da qiymətə təsirsiz ötüşmədiyini vurğulayıb: "Ekoloji standartlar yüksəlir. Daş karxanalarını əvvəlki kimi istismar edə bilmirlər, buna ciddi nəzarət var". Onun fikrincə, qarşıdakı aylarda bazarda cüzi ucuzlaşma baş verə bilər: "Qış aylarında cüzi ucuzlaşmanın olacağını proqnozlaşdırmaq olar. Noyabr-dekabr aylarında mövsümlə bağlı bahalaşan məhsulların qiyməti enə bilər. Lakin bu ucuzlaşma böyük rəqəmlərlə ifadə olunmayacaq".

■ **Mövzu ilə bağlı daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov deyib ki, tikinti materiallarının qiymətində bahalaşma növlərindən asılı olaraq 5-7 faiz, hətta 10-15 faiz civarındadır. Əsas tikinti materiallarının artımı isə təqribən 15 faizdir:**



**Nüsrət İbrahimov,**
əmlak məsələləri üzrə ekspert

"Ümumən tikintinin maya dəyərində tikinti materiallarının payı 40-45 faiz təşkil edir. Sementin payı isə 10.5 faiz olarsa, təbii ki, tikintinin maya dəyərində artım qaçılmaz olur. Lakin bu gün daşınmaz əmlak bazarında aparılan əqdlərin sayı son dörd ilin ən aşağı səviyyəsindədir. Ona görə də maya dəyərində qiymət artımının satış qiymətinə təsiri haqqında təsdiqedici fikir bildirmək, hesab edirəm ki, bir az tez olar.

Yəqin bu təsiri biz ilin sonunda və ya növbəti ilin əvvəlində hiss edərik". Mütəxəssis bununla yanaşı bildirib ki, mişar daşının bahalaşması evlərin qiymətinə təsirsiz ötüşməyəcək. O, yay fəslində tikinti işlərinin sürətləndiyini, daşa tələbatın artdığını vurğulayıb.

*"*

*Daş karxanalarını əvvəlki kimi istismar edə bilmirlər, buna ciddi nəzarət var*

*Bu təsiri biz ilin sonunda və ya növbəti ilin əvvəlində hiss edərik*

✍ **_Sevinc_**

# BRICS ölkələri ilə xarici ticarət dövriyyəmiz artacaq

**_MTM-in (Media Təhlil Mərkəzi) Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsindən əldə etdiyi məlumatlar əsasında apardığı təhlil göstərir ki, 2020-ci ildən 2023-cü ilədək Azərbaycanın BRICS ölkələri ilə olan xarici ticarət dövriyyəsi sürətlə artıb. Azalma yalnız 2020-ci ildə qeydə alınıb ki, buna da səbəb COVID-19 pandemiyası olub. Hafta.az Media Təhlil Mərkəzinin yaydığı məlumata istinadən xəbər verir ki, 2023-cü ilin yekununda bu rəqəm 9,78 milyard dollar, yəni 2022-ci il ilə müqayisədə 13,5 faiz və ya 1,16 milyard dollar çox olub. Cari ilin birinci yarısında isə Azərbaycanın BRICS ölkələri ilə etdiyi xarici ticarətin həcmi 4,96 milyard dollara çatıb._**



Qeyd edək ki, 2024-cü ilin birinci yarısında BRICS ölkələri ilə olan xarici ticarət dövriyyəsinin 2023-cü ilin yekun göstəricisinin 51 faizinə bərabər olması, ilin yekununda qeydə alınacaq rəqəmin də 2023-cü ilin nəticəsindən yüksək olacağını deməyə əsas verir.

Azərbaycanın BRICS ölkələri ilə xarici ticarət əlaqələrinə diqqət etsək, bu ölkələr ilə ticarət tərəfdaşlığının daha çox idxal olunan məhsullar üzrə olduğunu görərik.

Daha ətraflı desək, 2023-cü ildə Azərbaycana BRICS ölkələrindən 7,17 milyard dollar dəyərində məhsul idxal olunub ki, bu da 2022-ci il ilə müqayisədə 24,1 faiz və ya 1,4 milyard manat çox deməkdir. İdxal həcmində azalma yalnız 2020-ci ildə qeydə alınıb ki, həmin ilin göstəricisi 560 milyon dollara bərabər olub. 2024-cü ilin birinci yarısında isə BRICS ölkələrindən idxal olunan məhsulların həcmi 3,78 milyard dollar təşkil edib. 2021 və 2022-ci illərdə Azərbaycanın BRICS ölkələrinə ixrac etdiyi məhsulların həcmində artım qeydə alınıb. Cari ilin birinci yarısında isə BRICS ölkələrinə olan ixracın həcmi 1,18 milyard dollar təşkil edib.

Ümumilikdə son 5 il 6 ayda Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 217,3 milyard dollar təşkil edib ki, bunun da 19,49 faizi və ya 42,3 milyard dolları BRICS ölkələri ilə olan xarici ticarət həcmidir. Digər ölkələr ilə olan xarici ticarət dövriyyəsi isə 175 milyard dollara çatıb.

Daha dəqiq desək hesabat dövründə Azərbaycanın ixrac əməliyyatlarının 9 faizi və ya 12,66 milyard dolları BRICS ölkələrinə, idxal əməliyyatlarının isə 38,66 faizi və ya 29,7 milyard dolları BRICS ölkələrindən olunub.

Son 5 il 6 ayda BRICS ölkələri arasında əsas ticarət tərəfdaşımız şimal qonşumuz Rusiya olub. 2019-cu ildən cari ilin iyul ayınadək Rusiya ilə olan xarici ticarət dövriyyəsi 18,9 milyard təşkil edib ki, bu da BRICS ölkələri ilə olan ümumi xarici ticarət dövriyyəsinin 44,7 faizinə bərabərdir. Bu göstərici üzrə ikinci sırada 12,7 milyard dollar ilə Çin dayanır. Çin ilə olan xarici ticarət dövriyyəsi BRICS üzvləri ilə olan ticarət dövriyyəsinin 30 faizini təşkil edir. 15,14 faiz pay ilə üçüncü sırada Hindistan yer alır. Bu zaman aralığında Hindistan ilə olan xarici ticarət dövriyyəsi 6,4 milyard dollar təşkil edib. Cənub qonşumuz İran isə 2,56 milyard dollar (6 faiz) xarici ticarət dövriyyəsi ilə dördüncü sırada qərarlaşıb. Qalan 4,1 faizlik hissə yəni 1,73 milyard dollar isə digər BRICS ölkələrinin payına düşür. Azərbaycanın BRICS ölkələri ilə olan xarici ticarət əlaqələrinə ayrı-ayrılıqda baxsaq, Hindistan və Misir ilə olan ticarət dövriyyəsində ixrac həcminin üstünlük təşkil etdiyini görə bilərik. Daha dəqiq desək, Hindistan ilə olan ticarət dövriyyəsinin 85,39 faizini, Misir ilə olan ticarət dövriyyəsinin 52,02 faizini ixrac əməliyyatları tutur. Digər ölkələrlə olan ticarət əlaqələrində idxal həcmi ixrac həcmini üstələyir.

Qeyd edək ki, BRICS üzvləri arasında əsas xarici ticarət tərəfdaşımız olan Rusiya ilə olan ticarət dövriyyəsinin 73,1 faizini idxal, 26,9 faizini isə ixrac əməliyyatları təşkil edir.

BRICS təşkilatı 2009-cu ildə Rusiyanın təşəbbüskarlığı ilə, Braziliya, Hindistan və Çinin birgə yaratdığı hökumətlərarası təşkilatdır. 2010-cu ildə bu təşkilata Cənubi Afrika Respublikası (CAR) da qoşulub. 2023-cü ildə isə Argentina, Misir, Efiopiya, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) təşkilata qoşulmaq üçün müraciət edib və Argentinadan başqa bütün namizədlər 2024-cü il 1 yanvar tarixindən BRICS üzvü kimi qəbul ediliblər. Argentinanın təşkilata üzv olmamasının səbəbi isə 2023-cü ilin sonunda Argentinada hakimiyyət dəyişimi və yeni hakimiyyətin BRICS liderlərinə məktub ünvanlayaraq üzvlükdən imtina etməsidir.

Azərbaycanın da qoşulmaq istədiyi təşkilata daha 27 ölkə üzv olmaq istəyir ki, bunlar Belarus, Türkiyə, Əlcəzair, Banqladeş, Bəhreyn, Boliviya, Venesuela, Vyetnam, Honduras, Pakistan, Seneqal, Zimbabve, İndoneziya, Qazaxıstan, Kuba, Çad, Şri-Lanka, Küveyt, Mərakeş, Nigeriya, Nikaraqua, Suriya, Tailand, Uqanda, Ekvatorial Qvineya, Cənubi Sudandır.

✍ **_Sevinc_**

# Bakı yollarının yeni kabusu

***Son zamanlar motosiklet və moped sürücülərinin iştirakı ilə baş verən qəzaların sayı yenidən artıb. Müşahidələr göstərir ki, motosiklet və moped sürücülərinin əksəriyyəti tez-tez qaydaları pozur, onlar qırmızı işıqda keçirlər, səki ilə hərəkət edirlər. Nəticə etibarilə, həm özlərinin, həm də başqalarının həyatlarını təhlükəyə atırlar. Xatırladaq ki, ötən il avqustun 1-dən “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə edilmiş əlavə və dəyişikliklər qüvvəyə minib.***



*Avtomobil sürücüləri də mopedlərlə yolu paylaşmağa vərdiş etməyib*

*Azərbaycanda ötən illərlə müqayisədə motosiklet və moped sürücülərinin sayı xeyli dərəcədə artıb*

## Cəmiyyət

Dəyişikliyə əsasən mühərrikinin işçi həcmi 50 kub/sm və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyyat vasitələrinin qeydiyyatdan keçməməsi inzibati məsuliyyət yaradır. Eyni zamanda, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan mexaniki nəqliyyat vasitələrini idarə edən şəxslərdən “A1” altkateqoriyalı sürücülük vəsiqəsi tələb olunur.

■ **Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov bildirib ki, əslində pandemiya dönəmindən moto-kuryerlərə tələbat artıb:** “Əvvəllər şəhərdə bu qədər moped yox idi. Pandemiyada daşınma xərcləri artdı, bu da moto-kuryerliyə marağı və tələbatı artırdı. Pandemiya dövründə kafe və restoranlar uzun müddət bağlı qaldı. Evlərə çatdırma xidmətindən istifadə edilməyə başlandı. Bu vaxta qədər də ünvana çatdırılma xidməti var idi, lakin indi kimi çox deyildi. Ona görə yollarda mopedlərin sayı da artıb. Avtomobil sürücüləri də mopedlərlə yolu paylaşmağa vərdiş etməyib. Moped sürücülərinin də günahı var, çünki bir çoxları motosikleti idarə etməyi bilmir, sürücülük vəsiqələri də heç yoxdur. Yol hərəkəti qaydalarına bələd deyillər. Elə zənn edirlər ki, kiçik həcmlidir deyə, motosikleti harda gəldi, necə gəldi sürmək olar. Bir tərəfdən də sifarişləri tez çatdırmağa, gün ərzində bacardıqca çox sifariş yerinə yetirməyə və daha çox qazanc əldə etməyə çalışırlar, ona görə də tələsirlər, yol hərəkəti qaydalarını pozurlar və qəzalara səbəb olurlar. Ümumiyyətlə, qəzalara əsas səbəblər yol hərəkəti iştirakçılarının bilərəkdən qaydaları pozması, yol infrastrukturunun bərbad, qaranlıq, çala-çuxur olması, köhnə, nasaz nəqliyyat vasitələri ilə əlaqəlidir. Moped sürən gənc vətəndaşlarımızın əksəriyyəti yol hərəkəti qaydalarından və mopedi yolun hansı zolağında idarə etməli olduğundan xəbərdar deyillər. Bununla bağlı müvafiq qurumlar iş görməlidirlər. Yol infrastrukturunun qurulmasına, nizam-intizama, yolların nişanlanmasına, bütövlükdə yollardakı vəziyyətə Dövlət Yol Polisi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi nəzarət edir. Onlar düşünüb çıxış yolu axtarmalıdırlar ki, qəzaların sayı azaldılsın”.

■ **Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov da hesab edir ki, Azərbaycanda ötən illərlə müqayisədə motosiklet və moped sürücülərinin sayı xeyli dərəcədə artıb:** “Demək olar ki, bu gün express daşıyıcıların əksəriyyəti daşımaları moped və motosikletlərlə həyata keçirirlər. Hətta bazara daha bir neçə yeni daşıyıcı şirkət daxil olub. Onlar da daşımaları motosiklet və mopedlə həyata keçirirlər. Nəticədə yollarda hərəkət edən bu tip nəqliyyat vasitələrinin sayı artıb. Motosiklet və moped sürücülərinin qayda pozuntuları ilə mübarizə aparmaq üçün mütləq insanların yol hərəkəti qaydaları və ”Yol hərəkəti haqqında” Qanunun minimum anlayışları bilməlidirlər. Onlardan necə faydalanmaq lazım olduğunu da öyrənilməlidir. Bu qaydalar öyrənilməsə və onlara riayət edilməsə şübhəsiz ki, belə hadisələr çoxalacaq. Sözügedən qayda pozuntuları nəticəsində baş verən qəzalar nəticəsində isə çox sayda insan yaralana və həyatını itirə bilər”.

*Müşfiq*

# İpoteka kreditlərinə tələb azalıb



**Azərbaycan Mərkəzi Bankının (AMB) “Kreditləşmə fəaliyyətinə dair sorğu”sunun 2024-cü il II rüb üzrə nəticələrinə əsasən ipoteka kreditləri üzrə standartlarda sərtləşmə müşahidə edilib. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) “Kreditləşmə fəaliyyətinə dair sorğu”sunda qeyd edilib.**

Sərtləşmə bankların daxili resurslar hesabına verilən ipoteka kreditləri üzrə olub. İKZF hesabına verilən ipoteka kredit standartlarında dəyişiklik müşahidə edilməyib. Banklar növbəti rübdə də daxili ipoteka ilə verilən kreditlər üzrə standartlarda sərtləşmənin davam edəcəyini gözləyirlər.

Cari ilin II rübündə cəmi ipoteka kreditlərinə tələb azalıb. Respondentlərin cavablarına görə, tələbdəki azalmanın əsas səbəbi daxili ipoteka kreditləri olub. Eyni zamanda, bankların İKZF hesabına verilmiş ipoteka kreditləri üzrə kredit tələbi də cari ilin əvvəlki rübü ilə müqayisədə azalıb. Sorğu nəticələrinə əsasən, banklar növbəti rübdə də ipoteka kreditlərinə, o cümlədən daxili ipoteka kreditlərinə tələbin azalacağını proqnozlaşdırırlar.

Bankların sorğuda qeyd etdiyi cavablara görə ipoteka kreditləri üzrə kredit standartlarına maliyyələşmə dəyəri, digər banklarla rəqabət, daşınmaz əmlak bazarı, bankların kapital və likvidlik mövqeyi sərtləşdirici təsir göstərən faktorlar olub.

# “Nar” intellektual oyunlara dəstəyini davam etdirir ®




**Ən sərfəli mobil operator olması ilə yanaşı, sosial layihələrə də xüsusi diqqəti ilə seçilən “Nar” artıq dörd mövsümdür ki, böyük maraqla davam edən və 300-ə yaxın komandanın iştirak etdiyi Kudos intellektual-əyləncəli quiz oyunlarına dəstəyini davam etdirir.**

Son iki mövsümdə “Nar” bu oyunlarda qalib gələn komandaları dəyərli hədiyyələrlə mükafatlandıraraq, intellektual fəaliyyətin təşviqinə öz töhfəsini verir. Qeyd edək ki, “Nar” ölkədə intellektual potensialın artırılması üçün müxtəlif layihələrə dəstək olmağı prioritet hesab edir. Kudos oyunlarına verdiyi dəstək də bu strategiyanın bir hissəsi olaraq, gənclərin bilik və bacarıqlarını genişləndirmələrinə şərait yaradır və onların intellektual inkişafını stimullaşdırır. “Nar”ın həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## HƏFTƏ REYTİNQ

### Həftənin ƏN YAŞLISI



Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərinin ilkin nəticələri açıqlanıb. Xalqı parlamentdə təmsil edəcək ən yaşlı və ən gənc deputatların kimliyini araşdırıb. Kiçik araşdırmadan sonra məlum olub ki, siyahıda yaşı 70-i ötmüş 17 qalib namizəd var. Onlara isə 84 yaşla Ziyad Səmədzadə başçılıq edir:

### Həftənin QƏRARSIZI



Ermənistan Baş naziri Nikol Paşinyan COP29-da iştirakı barədə hələ qərar verməyib. Bu barədə Ermənistan hökumətinin başçısı avqustun 31-də onlayn mətbuat konfransında bildirib. Paşinyanın sözlərinə görə, onun noyabr ayında Bakıda keçiriləcək COP29 konfransında iştirakına dair qərar o vaxtkı vəziyyətdən asılı olacaq.

### Həftənin VƏZİFƏLİSİ



İranda ilk dəfə qadın hökumət sözçüsü təyin edilib. Bu barədə İRNA məlumat yayıb. İran Prezidenti Məsud Pezeşkianın təklifi ilə Fatimə Mühacirani hökumət sözçüsü təyin olunub. O, bu postda Əli Bəhadori Cəhromini əvəzləyib. Bununla da Pezeşkianın kabinetində qadınların sayı dördə çatıb.

### Həftənin QADAĞASI



ABŞ Prezidenti Co Bayden Birləşmiş Ştatların Məxfi Xidmətinin təhlükəsizlik baxımından ona böyük izdihama yaxınlaşmağı qadağan etdiyini deyib. Bu barədə ABŞ lideri jurnalistlərlə söhbəti zamanı bildirib. “ABŞ Məxfi Xidmətinin əməkdaşları bunun çox təhlükəli olduğunu iddia edirlər”, - o vurğulayıb.

### Həftənin DƏVƏTİ



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BRICS sammitində iştirakla bağlı Rusiya rəhbərliyinin dəvətini qəbul edib. Bu barədə məlumatı Rusiya prezidentinin köməkçisi Yuri Uşakov açıqlayıb. “Təklif Türkiyə tərəfinə çatdırılıb, Ərdoğan onu qəbul edib”, - deyə Uşakov qeyd edib. Xatırladaq ki, BRICS sammiti oktyabrın 22-24-də Kazanda keçiriləcək.

### Həftənin İLKİ



Məşhur türkiyəli aktyor İbrahim Çelikkol İtaliyanın Kineo Mükafatları Mərasimində mükafat alan ilk türk aktyor olub. Aktyor Venesiya Film Festivalı çərçivəsində bu il keçirilən 22-ci mərasimdə “Ən yaxşı beynəlxalq aktyor” mükafatına layiq görülüb.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



**İnsanlar Hindistanın, Dehlinin köhnə məhəlləsində Yamuna çayı üzərində köhnə dəmir yolu körpüsünün altında yatırlar**

“

# Bakının tozlu havası

**Rasif Bağırov,**
Həkim terapevt

Tozlu hava tez-tez müşahidə olunduqda, ağciyərlərdə müəyyən xroniki abstruktiv xəstəliklərin əmələ gəlməsinə yol açır.

Səh. 7

## STATİSTİKA



■ **Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 11 milyard 783,5 milyon ABŞ dolları təşkil edib.**

Hafta.az quruma istinadən xəbər verir ki, bu, avqustun 1-i ilə müqayisədə 0,2 % çoxdur. AMB-nin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 1,5 %, son 1 ildə isə 25,8 % artıb.



Səh. 4

# Ailələrdə uşaqların sayı azalır